www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 iyul 2018-ci il Cümə axşamı № 143 (7032) Qiyməti 60 qəpik

**Xəbər**

## Xaçmazda qadın sevgilisini anasının gözü önündə öldürdü

yazısı səh.2-də

**Gündəm**

### Prezident İlham Əliyev enerji sistemindəki vəziyyətlə bağlı müşavirə keçirdi



Ölkə başçısı məmurlardan hesabat istədi, ciddi tapşırıqlar verdi

yazısı səh.3-də

### Azərbaycanın Müdafiə və Xarici İşlər nazirlikləri işğalçı ölkəyə xəbərdarlıq etdi

yazısı səh.11-də

### Vergi-biznes münasibətlərində yumşalma siyasəti

yazısı səh.7-də

### ABŞ-ın Türkiyə və İranla barış deyil, savaş siyasətinin pərdəarxası

yazısı səh.10-da

### Məhkəmə Hafiz Hacıyevin iddiası üzrə Aslan İsmayılovu cərimələdi

yazısı səh.2-də

*Sərdar Cəlaloğlu:*

### "Bu şərtlər daxilində müxalifət böhrandan çıxa bilməz"

yazısı səh.10-da

### Temperatur 4-6 dərəcə enəcək, bəzi yerlərdə leysan, dolu yağacaq

yazısı səh.2-də

### "Pambıqçılar təhlükəsizlik qaydalarına riayət etməlidir" - Qida Təhlükəsizliyi Agentliyi

yazısı səh.6-da

### "İşıq sönən zamanda hər hansı bir ölüm faktı qeydə alınmayıb" - Səhiyyə Nazirliyi

yazısı səh.12-də

### Media "qara xəbərləri" yaymalıdırmı - Avropa təcrübəsi

yazısı səh.4-də

# ELMAR VƏLİYEVƏ QARŞI SUİ-QƏSDİN İLGİNC TƏFƏRRÜATLARI

İcra başçısını kim və niyə güllələdi; qanlı olayın arxasındakı sirr pərdəsi; Gəncənin rəhbərinə atəş açan şəxsin Rusiya vətəndaşlığı alması...




yazısı səh.5-də

## Ermənistan "çarpaz təzyiq"lə üz-üzə: NATO-Rusiya seçimi Qarabağ savaşını yaxınlaşdırır

Dağlıq Qarabağla birgə Qərbin qucağına atılmağı hədəfləyən işğalçı ölkədə təlaş böyüyür; erməni KİV-lərindən həyasız tələb: "NATO, ABŞ və AB bizi Rusiya və Azərbaycandan qorumalıdır"; təcavüzkar iki istiqamətdən vurula bilər - Qarabağ və Naxçıvan...

yazısı səh.8-də



Habil Məmmədov

### Sahibkarların qənimi vəzifədən alındı

yazısı səh.6-da



*Tofiq Zülfüqarov:*

### "Rusiyanın informasiya mühiti və ictimai rəyi bizim üçün vacibdir"

yazısı səh.9-da



### Fəlakətdən zövq alanlar - Əli Həsənov son olaylardan yazdı

yazısı səh.3-də

**5 iyul 2018**

YENİ MÜSAVAT
N 143 (7032) 5 iyul 2018



## "Türkiyədə ölüm hökmünün tətbiqi elə də sadə məsələ deyil" - Ərdoğan

**Türkiyədə ölüm hökmünün tətbiqi elə də sadə məsələ deyil. «Trend»in məlumatına görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan pedofillərə qarşı ölüm hökmünün bərpa oluna biləcəyi məsələsini şərh edərkən deyib.**

R.T.Ərdoğan bildirib ki, bunun üçün ilk növbədə konstitusiya qərarı lazımdır.

Dövlət başçısı əlavə edib ki, hökumət, eləcə də ölkənin güc strukturları Türkiyə vətəndaşlarının müdafiəsi üçün əlindən gələni edir.

Qeyd edək ki, bir müddət əvvəl Türkiyədə pedofillərə qarşı ölüm hökmünün bərpa olunması məsələsinin müzakirə olunduğu bildirilmişdi.

## Azərbaycandan ABŞ-a və əks istiqamətdə uçuşlarda əl yükündə tozvari maddələrin daşınması yasaqlandı

**Nəqliyyatda Təhlükəsizlik İdarəsinin (TSA) sərəncamına əsasən Amerika Birləşmiş Ştatlarına və Amerika Birləşmiş Ştatlarından bütün uçuşlarda sərnişinlərin əl yükündə 350 ml-dən çox tozvari maddələrin daşınmasına qadağa qoyulur.**

"Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən "APA-Economics"ə verilən məlumata görə, belə maddələrə un, şəkər, qəhvə, ədviyyatlar, quru süd və digər bənzər məhsullar da daxildir. Uçuş zamanı bu cür maddələr sərnişinə lazım olmayacağı təqdirdə onlar qeydiyyatdan keçən baqaja təhvil verilməlidir.

350 ml-dən çox həcmli dərmanlar (tozlar) və uşaq qidası hava gəmisinin salonunda yalnız bağlı şəkildə daşına bilər.

Hava limanlarının rüsumsuz zonalarında (Duty Free) alınan məhsullar bağlı şəkildə və alışı təsdiq edən qəbzin mövcud olması şərti ilə daşınmaya qəbul edilir.

Qeyd edək ki, Heydər Əliyev Beynəlxalq Aeroportundan Bakı-Nyu-York-Bakı istiqaməti üzrə müntəzəm birbaşa reyslər həyata keçirilir. AZAL J2-101/J2-102 reysi həftədə iki dəfə - bazar ertəsi və şənbə günləri Boeing 787 Dreamliner hava gəmisi ilə həyata keçirilir.

Qadağa edilmiş maddələrin əl yükündə daşınması məsələsinə Bakı və Nyu-York hava limanlarında aviasiya təhlükəsizliyi xidmətinin əməkdaşları tərəfindən ciddi nəzarət ediləcək.

"Azərbaycan Hava Yolları" aviaşirkəti sərnişinlərdən baqajın daşınmasına dair yeni qaydaları nəzərə almağı xahiş edir", - deyə məlumatda vurğulanıb.

*04 iyul 2018-ci ildən etibarən*

***BAKI-SUMQAYIT-BAKI ELEKTRİK QATARLARININ YENİ HƏRƏKƏT***

***CƏDVƏLİ***

| Bakı - Sumqayıt | | | | | | | Sumqayıt - Bakı | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Qatar №-si | Bakıdan getmə vaxtı | Biləcəri st. çatma vaxtı | Biləcəri st. getmə vaxtı | Xırdalan st. çatma vaxtı | Xırdalan st. getmə vaxtı | Sumqayıt-sərn. çatma vaxtı | Qatar №-si | Sumqayıt-sərn. getmə vaxtı | Xırdalan st. çatma vaxtı | Xırdalan st. getmə vaxtı | Biləcəri st. çatma vaxtı | Biləcəri st. getmə vaxtı | Bakıya çatma vaxtı |
| 6001 | $08^{00}$ | $08^{14}$ | $08^{15}$ | $08^{21}$ | $08^{22}$ | $08^{40}$ | 6002 | $07^{10}$ | $07^{29}$ | $07^{30}$ | $07^{36}$ | $07^{37}$ | $07^{52}$ |
| 6003 | $08^{30}$ | $08^{44}$ | $08^{45}$ | $08^{51}$ | $08^{52}$ | $09^{10}$ | 6004 | $07^{30}$ | $07^{49}$ | $07^{50}$ | $07^{56}$ | $07^{57}$ | $08^{12}$ |
| 6005 | $08^{55}$ | $09^{09}$ | $09^{10}$ | $09^{16}$ | $09^{17}$ | $09^{35}$ | 6006 | $07^{45}$ | $08^{04}$ | $08^{05}$ | $08^{11}$ | $08^{12}$ | $08^{27}$ |
| 6007 | $16^{00}$ | $16^{14}$ | $16^{15}$ | $16^{21}$ | $16^{22}$ | $16^{40}$ | 6008 | $08^{00}$ | $08^{19}$ | $08^{20}$ | $08^{26}$ | $08^{27}$ | $08^{42}$ |
| 6009 | $17^{00}$ | $17^{14}$ | $17^{15}$ | $17^{21}$ | $17^{22}$ | $17^{40}$ | 6010 | $08^{50}$ | $09^{09}$ | $09^{10}$ | $09^{16}$ | $09^{17}$ | $09^{32}$ |
| 6011 | $17^{30}$ | $17^{44}$ | $17^{45}$ | $17^{51}$ | $17^{52}$ | $18^{10}$ | 6012 | $09^{17}$ | $09^{36}$ | $09^{37}$ | $09^{43}$ | $09^{44}$ | $09^{59}$ |
| 6013 | $18^{05}$ | $18^{19}$ | $18^{20}$ | $18^{26}$ | $18^{27}$ | $18^{45}$ | 6014 | $09^{50}$ | $10^{09}$ | $10^{10}$ | $10^{16}$ | $10^{17}$ | $10^{32}$ |
| 6015 | $18^{30}$ | $18^{44}$ | $18^{45}$ | $18^{51}$ | $18^{52}$ | $19^{10}$ | 6016 | $16^{55}$ | $17^{14}$ | $17^{15}$ | $17^{21}$ | $17^{22}$ | $17^{37}$ |
| 6017 | $18^{45}$ | $18^{59}$ | $19^{00}$ | $19^{06}$ | $19^{07}$ | $19^{25}$ | 6018 | $17^{50}$ | $18^{09}$ | $18^{11}$ | $18^{17}$ | $18^{19}$ | $18^{35}$ |
| 6019 | $19^{10}$ | $19^{24}$ | $19^{25}$ | $19^{31}$ | $19^{32}$ | $19^{50}$ | 6020 | $18^{18}$ | $18^{37}$ | $18^{38}$ | $18^{44}$ | $18^{45}$ | $19^{00}$ |
| 6021 | $19^{40}$ | $19^{54}$ | $19^{55}$ | $20^{01}$ | $20^{02}$ | $20^{20}$ | 6022 | $18^{50}$ | $19^{09}$ | $19^{10}$ | $19^{16}$ | $19^{17}$ | $19^{32}$ |
| 6023 | $20^{30}$ | $20^{44}$ | $20^{45}$ | $20^{51}$ | $20^{52}$ | $21^{10}$ | 6024 | $19^{30}$ | $19^{49}$ | $19^{50}$ | $19^{56}$ | $19^{57}$ | $20^{12}$ |
| 6025 | $21^{40}$ | $21^{54}$ | $21^{55}$ | $22^{01}$ | $22^{02}$ | $22^{20}$ | 6026 | $20^{30}$ | $20^{49}$ | $20^{50}$ | $20^{56}$ | $20^{57}$ | $21^{12}$ |

*Qeyd: - Hər şənbə, bazar və bayram günləri 6002/6001, 6004/6003, 6006/6005, 6013, 6017, 6022, 6025 nömrəli elektrik qatarları hərəkətdə olmayacaqlar.*

*- Hər şənbə, bazar və bayram günləri: Sumqayıt stansiyasından saat $09^{17}$ –də yola düşən 6012 elektrik qatarı saat $09^{50}$ –də yola düşəcəkdir və Bakıya saat $10^{32}$-də çatacaqdır; Sumqayıt stansiyasından saat $09^{50}$ –də yola düşən 6014 elektrik qatarı saat $11^{00}$-da yola düşəcəkdir və Bakıya saat $11^{42}$-da çatacaqdır.*

## Bakı-Sumqayıt elektrik qatarlarının sayı artırıldı

**İyulun 4-dən Bakı-Sumqayıt-Bakı elektrik qatarlarının sayı artırılıb. Bu barədə "Azərbaycan Dəmir Yolları" ASC-dən məlumat verilib. Sərnişin axınının artması ilə əlaqədar olaraq, bu gündən etibarən Bakı-Sumqayıt-Bakı marşrutu üzrə əlavə Bakıdan saat 17:00 və 21:40-da, Sumqayıtdan isə saat 17:50-də və 20:30-da yola düşən elektrik qatarları təyin edilir.**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**


# Təlimlərin döyüş atışlı mərhələsi başlayıb



**Genişmiqyaslı hərbi təlimlərin gündüz və gecə vaxtı döyüş atışlı mərhələsi başlayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, bu mərhələdə qoşunlar şərti düşmənin hücumunun qarşısının alınması, onun atəşlə təlafata uğradılması, müdafiənin əlverişli hədlər üzrə bərpa olunması və genişmiqyaslı hücum əməliyyatının keçirilməsi tapşırıqlarını icra edir.**

Mürəkkəb dağlıq relyef və radioelektron mübarizə, həmçinin təlimlərin niyyəti ilə müəyyən edilmiş digər xarakterik xüsusiyyətlər şəraitində keçirilən təlimlərdə qoşunların müasir ümumqoşun əməliyyatlarının keçirilməsinin müxtəlif üsullarının icrası üzrə bacarıq və vərdişləri praktiki olaraq təkmilləşdirilir, qoşunların və idarəetmə sistemlərinin qarşılıqlı əlaqədə effektiv tətbiqi həyata keçirilir.

Müxtəlif təlim poliqonlarında yeni silah sistemlərinin də istifadəsi ilə motoatıcı və tank bölmələri, raket və artilleriya qurğuları, zenit-raket kompleksləri, təyyarə və helikopterlər döyüş atışları, praktiki raket buraxılışları və bombalama icra edir.



## Temperatur 4-6 dərəcə enəcək, bəzi yerlərdə leysan, dolu yağacaq -xəbərdarlıq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti hava şəraiti ilə bağlı növbəti xəbərdarlıq edib.**

ETSN-in mətbuat xidmətindən APA-ya verilən məlumata görə, bir neçə gün davam edən anomal isti hava şəraitindən sonra iyulun 5-i axşamdan 9-dək Bakıda və Abşeron yarımadasında şimal-qərb küləyinin güclənəcəyi gözlənilir.

Havanın temperaturu tədricən 4-6 dərəcə enəcək.

Azərbaycan rayonlarında iyulun 5-i gündüzdən 9-dək qərb küləyinin ayrı-ayrı yerlərdə güclənəcəyi, bəzi şimal və qərb rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Havanın temperaturu tədricən 3-5 dərəcə aşağı enəcək. Bəzi dağ çaylarında sululuğun artacağı, qısamüddətli daşqın keçəcəyi ehtimalı var.



## Ay tutulması baş verəcək

**"Bu il iyulun 27-dən 28-nə keçən gecə Ay tutulması baş verəcək". Bunu APA-ya Azərbaycan Mili Elmlər Akademiyasının (AMEA) N. Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini, fizika üzrə fəlsəfə doktoru Xıdır Mikayılov deyib.**

O bildirib ki, Ay tutulması Bakı vaxtı ilə saat 22:24:27-də başlayıb, saat 00:21:44-də maksimumda olacaq və saat 02:19:00-da sona çatacaq.

Direktor müavininin sözlərinə görə, Ay tutulması Azərbaycan ərazisində tam müşahidə olunacaq və həmin tarixdə Mars-Yer qarşıdurması hadisəsi də baş verəcək.

X. Mikayılov qeyd edib ki, Ay tutulması Yerin ekvatorial zonasında baş verəcək: "Bu Ay tutulması mərkəzi tutulma adlanır. Yəni Ay kölgənin mərkəzindən keçəcək".

Qeyd edək ki, 2018-ci ildə ilk Ay tutulması 31 yanvarda baş verib.

## Məhkəmə Hafiz Hacıyevin iddiası üzrə Aslan İsmayılovu cərimələdi

**Səbayel Rayon Məhkəməsində Müasir Müsavat Partiyasının (MMP) sədri Hafiz Hacıyevin hüquqşünas Aslan İsmayılova qarşı xüsusi ittiham qaydasında verdiyi şikayət üzrə məhkəmə prosesi davam edib.**

APA-nın xəbərinə görə, hakim Azər Tağıyevin sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub.

Qərara əsasən, Aslan İsmayılov Cinayət Məcəlləsinin 148-ci maddəsi üzrə 1500 manat cərimə olunub, 147.2-ci maddəsi üzrə ona bəraət verilib.

Həmçinin məhkəmə A. İsmayılov barəsində başqa yerə getməməyə dair iltizam qətimkan tədbiri seçib.

Qeyd edək ki, MMP-nin sədri H.Hacıyev hüquqşünas A.İsmayılovu xüsusi ittiham qaydasında məhkəməyə verib. H. Hacıyev A.İsmayılovun onun şərəf və ləyaqətini alçaltdığını iddia edərək, buna görə hüquqşünasın Cinayət Məcəlləsinin 147-ci (Təhqir) və 148-ci (Böhtan) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilməsini istəyib.

A.İsmayılov da qarşılıqlı olaraq H. Hacıyevi məhkəməyə verib.



## Fövqəladə hallar naziri Mingəçevirdə səfərdə olub

**İyulun 3-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində cərəyan transformatorunda baş vermiş qəza nəticəsində Bakı və Gəncə şəhərləri də daxil olmaqla, respublikanın 39 şəhər və rayonunun elektrik enerjisi ilə təminatında fasilə yaranıb. Baş vermiş hadisənin səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə prezident İlham Əliyevin 3 iyul tarixli sərəncamı ilə Dövlət Komissiyası yaradılıb.**

APA-nın xəbərinə görə, Dövlət Komissiyasının üzvü, fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov iyulun 3-də və 4-də Mingəçevir şəhərində səfərdə olub. K. Heydərov Fövqəladə Hallar Nazirliyinin və digər dövlət qurumlarının nümayəndələrinin və "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin rəhbər şəxslərinin iştirakı ilə sıradan çıxmış cərəyan transformatorunun hazırkı vəziyyəti ilə tanış olub, aparılan təmir-bərpa işlərini yaxından izləyib.

Problemin qısa zamanda tam həll olunmasının vacibliyini diqqətə çatdıran nazir yaranmış vəziyyətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqətində olduğunu xüsusilə vurğulayıb. Kəmaləddin Heydərov təmir-bərpa işlərinin operativ şəkildə həyata keçirilməsi üçün aidiyyəti qurumların nümayəndələrinə müvafiq tapşırıqlar verib.

## Xaçmazda qadın sevgilisini anasının gözü önündə öldürdü

**Xaçmaz rayonunda qətl hadisəsi baş verib. «Trend»in məlumatına görə, hadisə rayonun Xudat şəhərində baş verib.**

Şəhər sakini Mirzəyeva Vüsalə Tahir qızı birlikdə yaşadığı Osmanov Maarif Tofiq oğlu və onun anası Osmanova Narxanım İsmayıl qızı ilə ailə münaqişəsi zəminində mübahisə edib.

V.Mirzəyeva mübahisə nəticəsində mətbəx bıçağı ilə M.Osmanova döş qəfəsindən zərbələr endirib.

Hadisə nəticəsində M. Osmanov hadisə yerində ölüb.

Faktla bağlı Xaçmaz Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb və V.Mirzəyeva şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

YENİ MÜSAVAT
N 143 (7032) 5 iyul 2018

**Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov facebook sosial şəbəkəsindəki səhifəsində son baş verən olaylarla bağlı öz mövqeyini açıqlayıb.**

# Fəlakətdən zövq alanlar...

## Əli Həsənov son olaylardan yazdı; "Onlar ortaya kamillik deyil, rəzillik nümunəsi qoydular"



**"Hər kəs yaxşı bilir ki, heç bir ölkə fövqəladə haldan, təbii fəlakətdən, böyük qəzalardan və kriminal hadisələrdən sığortalanmayıb"**

**Musavat.com Əli Həsənovun həmin açıqlamasını diqqətinizə çatdırır:**

- Yaxşı insanlar həyatda baş verən hər şeyə işıqlı tərəfdən baxır, əgər qəlb oxşayan, ruh dincəldən bir şey görürlərsə, onu başqaları ilə paylaşır və hamının bu gözəllikdən bəhrələnməsinə çalışırlar. Hətta yaxşı bir şey görmədikdə belə, onlar özləri gözəlliyi yaradır və yenə də ətrafları ilə paylaşırlar.

İyulun 3-də 42-45 dərəcəyə yüksələn isti havanın təsiri ilə ölkənin enerji təminatında mühüm rol oynayan Mingəçevir İES-də baş vermiş qəzadan dərhal sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə Xüsusi Dövlət Komissiyası yaradıldı, dövlət başçısının tapşırığına uyğun olaraq müvafiq qurumlar operativ şəkildə qəzanın nəticələrinin aradan qaldırılmasına başladılar. Atılan addımlar nəticəsində proqnozlaşdırıla biləcək bütün mənfi halların qarşısı dərhal alındı, ən əsası isə vətəndaşlarımızın həyatı qorundu, insan tələfatına yol verilmədi və çox qısa zaman kəsiyində elektrik enerjisi təminatı bərpa olundu.

Dövlət qurumları qəzanın nəticələrini aradan qaldırmağa çalışarkən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı silahlı sui-qəsd həyata keçirildi, onun özü və mühafizəçisi yaralandı. Məsələ barədə dərhal Azərbaycan prezidentinə məruzə olundu, dövlət başçısının tapşırıqları alındı, cinayəti törədən şəxs isti izlərlə tərk-silah edilərək saxlanıldı.

Hər kəs yaxşı bilir ki, heç bir ölkə fövqəladə haldan, təbii fəlakətdən, böyük qəzalardan və kriminal hadisələrdən sığortalanmayıb. Hazırlıq dərəcəsindən asılı olmayaraq, fövqəladə situasiyaların yaratdığı gözlənilməzlik effekti hər bir ölkədə müəyyən fəsadlar ortaya çıxarır. Ölkəmizdə kriminogen durum sabit olsa da, cinayətlərin sayına görə Azərbaycan MDB və Şərqi Avropada sonuncu yerlərdə qərar tutsa da, törədilən cinayətlərin açılma səviyyəsinə görə öncül mövqeləri bölüşsək də, insan canına qəsd tipli hadisələr cəmiyyətdə narahatlıq, çaşqınlıq və xof yarada bilir. Belə cinayət tanınmış şəxslərə qarşı törədiləndə isə onun doğurduğu ajiotaj daha böyük olur.

Azərbaycanda baş vermiş həm son fövqəladə qəzanın, həm də məlum kriminal hadisənin eyni vaxta düşməsi, əlbəttə ki, əlavə gərginlik yarada bilən hal kimi xarakterizə edilə bilər. Belə hallarda məmurundan tutmuş adi vətəndaşına, iqtidarından tutmuş müxalifətinə, ziyalısından fəhləsinə qədər - hər bir təbəqə, hər bir sağlam düşüncəli insan ümumi işə töhfə vermək üçün əlindən gələni etməli, bunu bacarmadıqda isə ən azından işə mane ola biləcək artıq hərəkətlərdən çəkinməli, süni gərginlik yarada biləcək hərəkətlərə yol verməməlidir. Lakin təəssüf ki, hərdən insan fəlakətini, fövqəlada qəza və kriminal hadisələri özünə maddi və siyasi divident mənbəyi hesab edən fürsətcillər, insan ölümündən xüsusi zövq alan şəxslər də tapılır.

İnsan faciəsi, baş verən fəlakət yalnız dövlət qurumları üçün deyil, ümumilikdə bütün cəmiyyət üçün, siyasi mövqeyindən, dinindən, irqindən asılı olmayaraq hər bir şəxs üçün bir kamillik imtahanı, sınaq anıdır. Bir şəxsin düçar olduğu bədbəxt hadisədən, insanların rastlaşdığı kütləvi faciələrdən zövq almaq, yaxud bundan öz maraqları naminə bəhrələnməyə çalışmaq indiyə qədər heç kimə divident qazandırmayıb. Fəlakət və qəzalara bir millət olaraq nə dərəcədə hazırıq, fors major situasiyalarda dövlətin yanındayıqmı, şayiə texnoloqlarının, antimilli ünsürlərin, dövlətimizin qəsdinə hazır duranların fəaliyyətinə, işbazların bazarına meydan tanıyırıqmı? Dünənki hadisələr fonunda Azərbaycanda mütləq əksəriyyətin bu sınaqdan alnıaçıq çıxdığını çəkinmədən söyləyə bilərəm...

Təəssüf ki, bu dəfə də istisnalar oldu. Yenə də müxalifətin radikal kəsimi və xarici ölkələrdə məişət müxalifətçiliyi edən bəzi "milli təəssübkeşlər" ölkəmizdə baş verən qəzanı şans sanıb iç üzlərini bütün çılpaqlığı ilə açdılar, ortaya kamillik deyil, rəzillik nümunəsi qoydular. Onlar qaranlıq gecəni "məxfilik pərdəsi" hesab edərək insanları "bankları dağıtmağa", Azadlıq meydanına çıxmağa, Gəncədəki cinayəti - dövlət məmurunun həyatına sui-qəsdi "digər şəhərlərdə də təkrarlamağa" çağırışlar etdilər. Onların bir çoxunun saxta profillərdə gizləndiyi, bəzi qonşu dövlətlərin uzantısı olduğu az-çox siyasətdən başı çıxan hər kəsə məlumdur. Amma bu sırada 1992-1993-cü illərdə Azərbaycanda dövlət katibi, dövlət müşaviri, nə bilim nazir, icra başçısı, prokuror, polis rəisi, hərbi hissə komandirinin olduğunu görüncə, yaxud sabah ölkəmizdə prezident, ölkə başçısı, parlament sədri olmaq istəyən "siyasi xadimlər"i müşahidə edəndə sağlam düşüncəli insanı dəhşət bürüyür. Bunlar o illərdə ölkəmizi necə və hansı təfəkkürlə idarə ediblər?! Allah eləməsin, belələri indiki təfəkkür və mövqe ilə bir neçə il hakimiyyətdə qalsaydı gör nələr yaşanardı? Yaxud Allah eləməsin, onlar gələcəkdə ölkənin sükanını əllərinə keçirsələr nə olar?

Ölkədə olarkən özlərinə Dədə Qorqud donu biçib "barışdırıcılıq", "arbitrilik" eşqinə düşən bəziləri isə xaricə qaçaraq yad ölkələrdə özlərinə sığınacaq tapar-tapmaz XIX əsrin rus anarxistləri üslubunda hər yerdə itaətsizlik təşkil etməyə çalışır, hər gün üsyan çağırışları edir, hətta Gəncədəki kriminal hadisənin personajını qəhrəmanlaşdırmağa cəhd göstərdilər. Məsələnin daha pis cəhəti ondadır ki, həmin çağırışlara müxalifət partiyalarının ayrı-ayrı tanınmış nümayəndələri tərəfindən də dəstək verilir. Bəzən vətəndaş cəmiyyətinin müxalif düşüncəli bəzi təmsilçilərinin mövqeyi də adamı əməlli-başlı çaşdırır.

Görən bunca rəzillik, yetişdikləri torpağa, kökləri ilə bağlı olduğu xalqa, dövlətə, Vətənə bunca nifrət haradandır bu adamlarda? Bunlar bu ağıllamı iqtidara gəlib dövləti idarə etmək istəyirlər? Heç kim unutmamalıdır ki, dövlətin atributları hansısa iqtidarın inhisarında deyil və olmayacaqdır. Allah eləməsin, sabah belə təfəkkürlü insanlar iqtidara gəlsə, ölkənin qanunları ilə, dövlətlə, dövlətçiliklə bələmi davranacaqlar? İtaətsizliyə, dövlət atributlarına saygısızlığa, insanlara qarşı sui-qəsdə çağıran siyasətçi ilə dövləti necə idarə etmək olar? 1991-1992-ci illərin havasından çıxmaq üçün bu insanlara, görəsən, daha neçə onilliklər lazımdır? Getdikləri yolun hara aparıb çıxara biləcəyini və yaxud çıxarmayacağını anlamaq onlar üçün bu qədərmi çətindir?



# Prezident İlham Əliyev enerji sistemindəki vəziyyətlə bağlı müşavirə keçirdi

## Ölkə başçısı məmurlardan hesabat istədi, ciddi tapşırıqlar verdi

**İyulun 4-də Azərbaycan prezidenti İlham Əliyevin yanında ölkənin enerji sistemində yaranmış vəziyyətlə əlaqədar müşavirə keçirilib.**







Bu haqda Azərbaycan prezidentinin mətbuat xidməti məlumat yayıb.

Musavat.com-un əldə etdiyi məlumata görə, prezident İlham Əliyev yaranmış vəziyyət, onun səbəbləri və görülən işlər barədə müvafiq struktur rəhbərlərindən hesabat istəyib.

Dövlət başçısı enerji sistemindəki duruma görə məsuliyyət daşıyan şəxslərin cəzalandırılması, analoji hadisənin təkrarlanmaması üçün bütün mümkün tədbirlərin görülməsi barədə ciddi tapşırıqlar verib.

Qəza baş verən vaxtda dövlət qurumlarının vətəndaşlara kömək etməklə bağlı tapşırığın öhdəsindən peşəkarlıqla gəldiklərini deyən prezident İlham Əliyev vətəndaşlara göstərdikləri həmrəyliyə, dəstəyə və anlayışa görə təşəkkür edib.

❑ **Musavat.com**

**Azərbaycanda hətta uzaq kənddə baş vermiş zorlanma, intihar, qətl hadisəsi dərhal sosial şəbəkələr vasitəsilə mediaya yol tapır. Mediada və sosial şəbəkələrdə günlərlə müzakirə edilir, faciənin motivləri araşdırılır, səbəbkar axtarılır, bəzən də faciəni yaşamış şəxsin özü qınaq obyektinə çevrilir. Bu tip müzakirələrin sonunda isə ölkədə bu istiqamətdə sanki vahim durum olması kimi fikirlər də formalaşır.**



# Media "qara xəbərləri" yaymalıdırmı...

## Azər Ayxan: "Azərbaycan mediası İsveçrə təcrübəsindən nəticə çıxarmalıdır"
## Qabil Abbasoğlu: "Bütövlükdə mətbuata hansısa sahəyə aid xəbərləri yazmaq və yazmamaq tövsiyəsi vermək doğru deyil"
## Aynur Camalqızı: "Media tərbiyəçi deyil, xəbərçidir"


Azər Ayxan


Qabil Abbasoğlu


Aynur Camalqızı

Çoxlarında belə düşüncə var ki, guya Avropada belə olaylar baş vermir. Əlbəttə ki, Avropada intihar və digər kriminal olayların səbəbləri Azərbaycandan fərqli olur. Amma bəzi Avropa ölkələri dünyada intihar səviyyəsinə görə rekord qırır. Sadəcə, bu xəbərlər əksərən tirajlanmır.

Dünyanın ən inkişaf etmiş ölkəsi sayılan İsveçrədə intihar edənlərə qarşı fərqli münasibət göstərilir. İntihar edənlərin statistikası haqda ictimaiyyətə məlumat verilmir. Ölkə mediası da baş vermiş intihar, qəza və cinayət hadisələrini tirajlamır. Nadir kriminal hadisə olar ki, mətbuatda işıqlandırılır.

**Bu haqda İsveçrədə yaşayan həmyerlimiz yazıçı Əli Əkbər Əliyev hazırladığı videomaterialda ətraflı danışır. O, "Mauser Club" adlı yutub kanalında bildirir ki, İsveçrədə dövlətlə media əlbir işləyir:** "Burada senzuradan söhbət getmir. Olsa-olsa, bu, daxili senzuradır. İsveçrəlilərin qanını qaraltmamaq üçün, psixikasını pozmamaq üçün, ölkənin imicini qorumaq üçün gizlədirlər. Pis xəbərlərin mətbuata çıxışına senzura tətbiq edirlər. İsveçrə dağlıq ölkədir. Xeyli maşın uçurumdan aşır. Sükan arxasında tanınmış cənab, yaxud xanım deyilsə, bu, xəbər mövzusu olmur. Bu yaxınlarda avtobanda dəhşətli qəzaya şahid oldum... Maşınlar havaya qalxıb, yerə çırpıldı. Birinin içindən də hətta bir nəfər bayıra uçdu. Ertəsi gün qəzanı xatırlayanda İsveçrədə baş vermiş bütün qəzaların yer aldığı polisin onlayn məlumat bazasında baxdım. Qəzanın başvermə günü, saatı və yerini daxil etdim. Həmin gün baş vermiş qəzaların siyahısında bu qəza yoxdur. Gün ərzində baş vermiş 2-3 yüngül qəza yerləşdirilib, amma bu cür ağır qəza haqda məlumat daxil edilməyib... Azərbaycanda da bu tip xəbərləri 90 faiz azaltsalar, insanların psixikası düzələr".

Qeyd edək ki, sovetlər dövründə də İsveçrədə olduğu kimi ölkə ərazisində baş vermiş cinayət, intihar və qəza hadisələrinin əksəriyyəti gizlədilirdi. Və bu, cəmiyyət tərəfindən "həqiqətlər ictimaiyyətdən gizlədilir" deyə qınanılırdı da. İsveçrə təcrübəsi isə göstərir ki, bu cür yanaşma əslində insanların zərərinə deyil, faydası üçün edilirmiş.

Bir arada müzakirələr başlanmışdı ki, kriminal xəbərlərin yayımlanması doğru deyil, cəmiyyət bundan heç də yaxşı nəticə əldə etmir. Lakin müzakirələr qısa zaman ərzində səngidi. Azərbaycandakı xəbər saytlarının başlıqlarına qısa nəzərə salsaq görərik ki, əksəri kriminal mahiyyətlidir.

Maraqlıdır, neqativ xəbərlərin yayımlanmasından oxucu nə əldə edir? Medianın bu cür başlıqlı xəbərlərdən qazancı nədir? Bu cür xəbərlərin tirajlanması dayandıra bilərlərmi?

**Lent.az İnformasiya Agentliyinin baş redaktoru Qabil Abbasoğlu hesab edir ki, bütövlükdə mətbuata hansısa sahəyə aid xəbərləri yazmaq və yazmamaq tövsiyəsi vermək doğru deyil:** "Mətbuatın belə düşünməsini də normal hesab etmirəm. Mətbuatın normal işi, funksiyası cəmiyyət həyatında baş vermiş hadisələri cəmiyyətə çatdırmaqdır. Bütün kateqoriya xəbərlərdə mətbuat çalışmalıdır ki, son dərəcə diqqətli və etikaya uyğun formada çatdırdın. Konkret sözügedən kateqoriyada xəbərləri qəbul edirəm ki, həssaslıq var. İnsan taleyinə aid məsələ olduğu üçün, cəmiyyətdə neqativ nümunələrin artmasına rəvac verə bildiyi üçün bu tip xəbərlərdə təkcə xəbərə güzgü tutmaq deyil, bu və ya digər dərəcədə stimullaşdırmaq deyil, bu tip xəbərləri həm də əməllərə kölgə salmaq niyyəti ilə cəmiyyətə çatdırmaq lazımdır. Bu niyyəti göstərmək üçün də köməyimizə çatan vasitə mətbuatı maarifləndirmə funksiyasıdır. Mətbuat bu tip hadisələri verəndə onun qeyri-insani, vəhşi, iyrənc təbiətini qabartmaqdan daha çox bu tip hadisələrin qarşısının alınmasına, onu törədən səbəblərin nədən ibarət olmasına dair ailəvi ekspertlərin, mütəxəssislərin iştirakı ilə maarifləndirici materialların hazırlanmasına üstünlük verməlidir. Amma mətbuata hər hansı kateqoriyadan xəbərlərin yayılmasına qadağa qoyulması, yaxud pislənməsini doğru hesab etmirəm".

**"Teleqraf" Media Qrupunun rəhbəri Aynur Camalqızı isə bildirir ki, media tərbiyəçi deyil, xəbərçidir:** "Şəxs olaraq fikrimi bilmək istəsəniz, oxucu kimi əlimdə olsaydı bu tip xəbərlərin mediada yayımlanmasını istəməzdim. Məsələyə jurnalist kimi peşəkar istiqamətdən baxıramsa, düşünürəm ki, mümkün deyil. İnformasiya varsa, hadisə baş veribsə, mütləq onu yayımlamaq lazımdır. İnsanların, cəmiyyətin münasibətinə gəlincə, düşünürəm ki, jurnalistika, media tərbiyəçi deyil. Media xəbərçidir. Düzdür, medianın maarifləndirmə funksiyası da var. Bu funksiyadan istifadə edərək insanları maarifləndirməyə çalışırıq. Ümumilikdə götürəndə biz tərbiyəçi deyilik və insanları tərbiyə etməyə borclu deyilik. Bu təhsilin, ailənin işidir. İnsanların təhsili o qədər güclü, mütaliəli, dünya görüşlü olmalıdır ki, bu tip xəbərlərin təsiri altına düşməsinlər. Hər bir savadlı, dünya görüşlü insan hansısa kriminal xəbəri oxuyanda cinayətkar olur? Düşünürəm ki, bunlar absurddur".

**A.Camalqızı onu da vurğulayıb ki, neqativ xəbəri yaymaqdan qorxmaq lazım deyil:** "Xəbərçiliklə yanaşı o cinayətin, hadisənin nəticəsini göstərmək lazımdır. Medianın işi bundan ibarətdir ki, bu tip xəbərlər verəndə mütləq tərəflərin, hüquq-mühafizə orqanlarının mövqeyi olmalıdır. Xəbər birtərəfli verilə bilməz. Eyni zamanda sonda həmin cinayətin yaratdığı fəsadlar da qeyd edilir. Əksər Avropa ölkələrində belədir. Məsələn, ailədən bir nəfər cinayət törədibsə, xəbərin sonunda onu bu cinayətə görə neçə il həbs gözləyir, övladının atasız və anasız qalacağı da qeyd edilir. Bunun özünün maarifləndirici xüsusiyyəti var. Xəbərçiliklə yanaşı, o cinayətin, hadisənin nəticəsini göstərmək lazımdır. Bu cür xəbər siyasəti ilə bu tip xəbərləri yaymaq mümkündür və onu yaymaqdan qorxmaq lazım deyil. Sadəcə, cəmiyyət dayanıqlı, immunitetli olmalıdır ki, sonradan medianı günahkar çıxartmasın. Medianın işi xəbəri yaymaqdır. O xəbəri alqılamaq oxucunun dünya görüşündən, immunitetindən çox asılıdır".

**"Yeni Müsavat" qəzetinin baş redaktorunun I müavini Azər Ayxan redaktor həmkarlarından fərqli düşünür. Hesab edir ki, Azərbaycan mediası İsveçrə təcrübəsindən nəticə çıxarmalıdır:** "Xeyli müddətdir ki, intihar, zorlama və qəzalarla bağlı medianın xəbər siyasətinə yenidən baxılması haqda təkliflər var. Avropa təcrübəsi ilə tanış olduqda təklifin əsaslı və doğru olduğunu düşünürük. Şəxsən mən redaktor, oxucu, vətəndaş olaraq bu cür xəbərləri oxumaq istəmirəm. Getdikcə nəyin şahidi oluruq? Zorlama, intihar xəbərləri ictimailəşdikcə sanki təbliğat effekti verir və intihar hadisələrinin sayı bir qədər də çox olur. Fikirlərim mübahisəli görünə bilər. Ortada İsveçrə təcrübə var ki, media bu mövzularda özünə senzura tətbiq edib. Bizim də bu təcrübədən nəticə çıxarmağımıza ehtiyac var. İstəyərdim ki, bu cür neqativ və utancverici, insanların psixikasına mənfi təsir edici xəbərləri Azərbaycan mediasından da heç olmasa müəyyən qədər yığışdıraq, bu kimi xəbərlərin yayılmasının müəyyən dərəcədə qarşısını alaq. İP dalınca qaçan saytlar, tiraj marağında olan qəzetlər, daha çox tamaşaçı cəlb etmək istəyində olan telekanallar var. Onlar da qınanılası deyil. Zamanla bu məsələ ilə bağlı redaktor həmkarımızın birlikdə ortaq qərara gələrək bu mövzulara senzura, müəyyən hədd qoymağımız yaxşı olardı".

**A.Ayxan intihar xəbərləri yaydıqca bu cür hadisələrin sayının artdığını da vurğulayıb:** "İntihar və zorlamada qəribə sirr var. Xəbərləri yaydıqca intihar hadisələrinin sayı daha da çoxalır. Bəzi həmkarlarımız deyə bilər ki, biz tərbiyəedici orqan deyilik, kütləvi informasiya vasitələrinin vəzifəsi tərbiyə etmək deyil. Amma söhbət bizim yaşadığımız cəmiyyətdən, ölkədən gedirsə, lazım gələrsə, tərbiyəsi ilə məşğul ola bilərik. Neqativ halların daha çox yayılmasının qarşısını almaq üçün də bəzi addımlar atmaq üçün fədakarlıq etməyə borcluyuq. Bununla bağlı yaxın gələcəkdə təşəbbüs olarsa, "Yeni Müsavat" Media Qrupu bu məsələdə cəmiyyətin mənafeyini müdafiə edən mövqedən çıxış etməyə hazırdır".

**Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 143 (7032) 5 iyul 2018

# Elmar Vəliyevə qarşı sui-qəsdin ilginc təfərrüatları

## İcra başçısını kim və niyə güllələdi; qanlı olayın arxasındakı sirr pərdəsi; Gəncənin rəhbərinə atəş açan şəxsin Rusiya vətəndaşlığı alması...

**Gəncə İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevə silahlı hücum olub. Nəticədə başçı və onun mühafizəçisi yaralanıb. Baş verən olayla bağlı Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidməti birgə rəsmi məlumat yayıb. Həmin məlumatda deyilir: "İyulun 3-də saat 20.30 radələrində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və onun mühafizəçisi Qasım Aşbazov İcra Hakimiyyətinin inzibati binasının qarşısında naməlum şəxsin odlu silahdan açdığı atəş nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb və xəstəxanaya yerləşdiriliblər.**




Cinayəti törədən - 1983-cü ildə Gəncə şəhərində anadan olan Yunis Səfərov dərhal həmin ərazidə xidmət aparan polis əməkdaşları tərəfindən tutularaq tərk-silah edilib. Fakt üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin 29-cu, 120.2.3-cü, 120.2.7-ci (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar qəsdən adam öldürməyə cəhd) və 228-ci (qanunsuz olaraq odlu silah əldə etmə) maddələri ilə cinayət işi başlanılıb. Prokurorluğun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılıb. Hazırda cinayətdən zərər çəkmiş Elmar Vəliyevin və Qasım Aşbazovun səhhəti qənaətbəxş olmaqla hər ikisi ixtisaslı tibbi yardımla əhatə edilib. Cinayət işi üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir. Faktla bağlı görülən tədbirlər Azərbaycan Prezidentinin şəxsi nəzarətindədir".

**Elmar Vəliyevə sui-qəsdlə bağlı prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "BBC News Azərbaycan"a danışıb.**

"Bununla bağlı narahatlığa əsas yoxdur. Elmar Vəliyevin vəziyyəti yaxşıdır. Mühafizəçisi xəsarət alıb. Söhbət adi kriminal hadisədən gedir. Cinayəti törədən şəxs polis tərəfindən yaxalanıb" - deyə, Əli Həsənov vurğulayıb.

Prezident Administrasiyası da hadisə ilə bağlı açıqlama yayıb. Açıqlamada təəssüflə bildirilir ki, əhali Mingəçevir İES-də qəzanın nəticələrinin aradan qaldırılması ilə bağlı qayğıları yaşadığı bir zamanda Gəncə şəhərində cinayət hadisəsi baş verib:

"Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və onun mühafizəçisi Qasım Aşbazov naməlum şəxsin odlu silahdan açdığı atəş nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb və xəstəxanaya yerləşdirilib. Məsələ barədə dərhal Azərbaycan prezidentinə məlumat verilib və müvafiq tapşırıqlar alınıb, cinayəti törədən şəxs saxlanılaraq məsuliyyətə cəlb edilib. Göründüyü kimi, Azərbaycan hökuməti bütün vəziyyətlərdə, o cümlədən fövqəladə hallar zamanı ölkənin və əhalinin təhlükəsizliyini, habelə cəmiyyətin normal həyat ritmini təmin etmək iqtidarındadır. Baş vermiş hadisə zamanı görülən işlər bunu əminliklə deməyə tam əsas verir.

Qeyd edilməlidir ki, kütləvi informasiya vasitələri Mingəçevir İES-də qəzanın baş verməsəbəbləri, onun aradan qaldırılması ilə bağlı dövlət orqanlarının gördüyü işlər barədə cəmiyyəti operativ və obyektiv şəkildə məlumatlandırıb, olduqca təmkinli və məsuliyyətli davranaraq, əhali arasında ajiotaj yaranmaması üçün üzərlərinə düşən vəzifələri icra ediblər. Əfsuslar olsun ki, bəzi müxalif dairələr nəzarətlərində olan xəbər saytları və sosial şəbəkələr vasitəsilə Mingəçevir İES-də baş vermiş qəzadan və Gəncə şəhərində vəzifəli şəxsə qarşı həyata keçirilmiş silahlı basqından məqsədyönlü şəkildə yararlanmağa çalışıb, dövlət və xalq mənafelərinə zidd mövqe tutaraq cəmiyyətdə ajiotaj yaratmaq, kütləvi narazılıq formalaşdırmaq və respublikada sabitliyi pozmaq əhval-ruhiyyəsi nümayiş etdirmişlər. Həmçinin özlərini müstəqil sayan bir sıra xəbər saytları da bu eyforik əhval-ruhiyyəyə qoşularaq, dəqiqləşdirilməmiş şayiələri baş vermiş hadisə kimi təqdim etmiş və vətəndaşları yalan informasiyalarla çaşdırmağa cəhd göstərmişlər. Mingəçevir İES-də baş vermiş qəzanın, o cümlədən bu hadisənin müxtəlif sahələrdə yaratdığı problemlərin aradan qaldırılması üçün dövlət orqanları tərəfindən zəruri tədbirlər həyata keçirilib və qısa müddətdə respublika həyatının bütün sahələrində normal iş fəaliyyəti bərpa olunub. Görülən işlər barədə müntəzəm qaydada əhaliyə məlumat verilib və qarşıdan gələn dövrdə bu fəaliyyət davam etdiriləcək"...

***

İcra başçısına sui-qəsd etmiş Y.Səfərovun tutulandan az sonra Rusiya vətəndaşı olmasını təsdiqləyən pasportunun fotosurəti yayılıb. Məlum olub ki, Y.Səfərova həmin pasport Gəncədə mühafizə polisinə xəsarət yetirib silahını oğurlayandan sonra verilib. Yəni Yunis Səfərov polisi döyüb silahını əlindən aldığına görə axtarışa verildikdən sonra Rusiyaya qaçıb və orada pasport alaraq yenidən Gəncəyə qayıdıb. Rusiyaya gedib qayıdana qədər onun bir hadisə ilə bağlı icra başçısı ilə qarşı-qarşıya gəldiyi, hətta hadisə zamanı icra başçısını ölümlə hədələdiyi haqda da iddialar var. 2011-ci ildə Gəncənin icra başçısı təyin olunan E.Vəliyev yaxşı idarəçi hesab edilir. Onun Gəncəyə rəhbərliyi dövründə şəhərin görkəmi yaxşı mənada dəyişib. Bununla belə, Elmar Vəliyevi tanıyanlar bilir ki, başçı Gəncəni özünün mal-mülki kimi idarə edir, bir çox hallarda tabeçilik məsələlərini də unudur. Başçının ətrafı, yerli məmurlar və əhali ilə münasibətləri həmişə yaxşı olmayıb. Bunu əsas səbəbi isə Elmar Vəliyevin kobud, əksər hallarda etik normalardan kənar rəftarı olub. Ehtimallar var ki, Yunis Səfərovla qarşılaşdığı zaman da tərəflər arasında yaranan mübahisə və başçının ölümlə hədələnməsi də məhz bu səbəbdən olub. Həmin vaxt Elmar Vəliyevin Yunis Səfərovun hədələrinə müvafiq qaydada reaksiya vermədiyi deyilir. Bildirilir ki, başçı onun sözlərini ciddiyə almayıb, məmur olaraq baş verən hədələmə haqda rəsmi müraciət etməyib. Ona görə də Yunis Səfərov ilk mübahisədən sonra polis əməkdaşına qarşı məlum zorakılığı edib və Rusiyaya gedərək oradan bu ölkənin vətəndaşı olaraq qayıdıb. Baş verən olayın gedişatından belə aydın olur ki, o, başçıya qarşı atacağı addımları əvvəlcədən planlayıb. Polisdən zor gücünə silah alıb, xarici dövlətin vətəndaşlığını almaqla törətdiyi cinayətdən sonra həmin ölkəyə ekstradisiya olunmasını hesablayıb.

Bilib ki, cinayəti törədəndən sonra Azərbaycanda qalsa, Elmar Vəliyevin yaxınları onun məhbəsdə rahat cəza çəkməsinə susqunluqla reaksiya verməyəcəklər. Onu da qeyd edək ki, Elmar Vəliyev baş prokurorun müavini, hərbi prokuror Xanlar Vəliyevin qardaşdır. Bunu Yunis Səfərovun bilməməsi inandırıcı görünmür. Törətdiyi cinayətdən sonra o, Rusiyaya ekstradisiya olunmasını tələb edə bilər...

Belə məlumatlar da var ki, Elmar Vəliyevlə sui-qəsdçinin konflikti ötən il Məhərrəm ayında baş verib. Başçı kütləvi tədbirə qarşı çıxıb və həmin vaxt Yunis Səfərovla arasında söz davası olub. Başçının hədələnməsi də həmin vaxt baş verib...

Hələlik başçıya qarşı sui-qəsdin əsl səbəbi rəsmi olaraq açıqlanmayıb. Ona görə də cinayətin konkret olaraq hansı motivlə törədilməsi də bilinmir.

Bəzi mənbələr isə iddia edir ki, ölkədə enerji böhranının yaşandığı bir vaxtda Elmar Vəliyevə atəş açılması Azərbaycanda vəziyyəti daha da gərginləşdirmək məqsədilə törədilən təxribat da ola bilər.

Xatırladaq ki, hələ prezident seçkiləri ərəfəsində rəsmilərin dilindən səslənən izahlardan belə aydın oldurdu ki, Azərbaycanı qarışdırmaq istəyən qüvvələr var. İddialara görə, işıq gərginliyi və xeyli insanın əsəblərinin də gərildiyi bir vaxtda başçının güllələnməsi də kəmfürsətcəsinə təxribat ssenarisinin başqa bir formada reallaşdırılması cəhdidir...

Region olaraq Gəncəbasar zonası Azərbaycanın əksər regionlarından fərqlənir. Gəncə ölkənin o zonalarındandır ki, burada ehtiyatsız bir kəlmə, yerində deyilməyən söz böyük mübahisəyə səbəb ola və qanla nəticələnə bilər. Elmar Vəliyev Gəncədə qanı tökülən ilk icra başçısı deyil. 1993-cü ildə Gəncənin icra başçısı olan Hacı Vaqif Vəliyev öz xidməti kabinetində qətlə yetirilib. Həmin qətlin tarixçəsi belə olub ki, Gəncədə kriminal avtoritet kimi tanınan "Zobik" başçının kabinetinə daxil olub və Hacı Vaqifə deyib ki, onun istədiyi adamları vəzifəyə təyin etsin. Hacı Vaqif də bildirib ki, heç kimə özbaşına vəzifə verə bilməz. "Zobik" də bundan əsəbiləşib Hacı Vaqifə bir sillə vurub. Hacı Vaqif də şəxsiyyətli adam olduğundan tapançanı çıxarıb "Zobik"in düz alnından güllə ilə atır. Orada olan "Zobik"in cangüdəni avtomatla yanında olan adamların hamısına atəş açır. Daha sonra Hacı Vaqifi və onun müavinini öldürəni tutdular, məhkəməsi oldu və ona 15 il iş verdilər.

Ən son məlumatlara görə, hazırda Elmar Vəliyevin və mühafizəçisinin həyatları üçün ciddi təhlükə yoxdur. Hadisə zamanı Elmar Vəliyevin yıxılaraq başının yerə zərblə dəyməsi zamanı xəsarət aldığı da bildirilir. Ümumilikdə isə başçı üçün həyati təhlükə aradan qaldırılıb.

❑ **Elşən MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 143 (7032) 5 iyul 2018

**Vergilər nazirinin müşaviri Habil Məmmədov vəzifəsindən azad edilib. Bu xəbər adi vətəndaşlar üçün sıradan bir məlumatdır: O baxımdan ki, Azərbaycanda 15-dən yuxarı nazirlik, hər nazirin də bir neçə müşaviri var, hansısa nazirin müşavirinin işdən azad olunması elə də ciddi rezonans doğuracaq məsələ deyil.**

# Sahibkarların qənimi vəzifədən alındı

## Habil Məmmədovun adı müxtəlif cinayət əməllərində, sahibkarlara divan tutulması prosesinin əsas təşkilatçılarından biri kimi hallanırdı



Lakin H.Məmmədovun vergilər nazirinin büdcə proqnozları üzrə müşaviri vəzifəsindən azad olunması biznes çevrəsində çox böyük rezonansa səbəb oldu.

Kimdir H.Məmmədov? Vergi generalı, 3-cü dərəcəli vergi müşaviri. Vergi orqanlarında 90-cı illərdən işləməyə başladığı deyilir. Onu vergi qanunvericiliyini dərindən bilən, vergilər sahəsində nəzəri və praktiki bilikləri geniş olan bir kadr kimi xarakterizə edirlər. Lakin bu biliklərin vergi orqanlarının Azərbaycan sahibkarlığının inkişafına dəstək verməsinə sərf olunduğunu söyləmək mümkün deyil. Məsələ burasındadır ki, H.Məmmədov vergi orqanlarında sahibkarlara divan tutulması prosesinin əsas təşkilatçılarından biri hesab olunur. Onun xüsusilə orta və iri sahibkarlardan rüşvət toplanması sxeminin yaradıcısı, icrasına baş nəzarətçi olduğu bildirilir.

Redaksiyamıza verilən məlumata görə, H.Məmmədov vergi qanunvericiliyində sahibkarlar üçün "tələ"lərin düşünülüb hazırlanmasında "əvəzsiz" rol oynayıb. Daha sonra isə həmin "tələ"lərə düşən sahibkarlar oradan çıxardılmaq üçün iri məbləğdə pullar ödəməyə məcbur edilirlər. Hətta H.Məmmədovun iş otağının adını sahibkarlar kinayə ilə "dinməver" otağı qoyublarmış...

Maraqlıdır ki, 2011-ci ildə mətbuat Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin rəisi işləyən H.Məmmədovun vəzifəsindən kənarlaşdırılması və həbs olunması barədə məlumat yayıb. Bundan başqa, onun həbsdən azad edilərək ev dustağına çevrilməsi barədə də informasiya dərc olunub.

Həmin vaxt Vergilər Nazirliyi Analitik İnformasiya Mərkəzindən H.Məmmədovun əmək məzuniyyətində olduğuna dair açıqlama verilib.

2015-ci ildə H.Məmmədov Bakı Vergilər Departamentinin rəisi vəzifəsinə təyin olunub. O, ötən ilin dekabrında prezident tərəfindən vəzifəsindən uzaqlaşdırılan sabiq vergilər naziri Fazil Məmmədova ən yaxın kadrlardan biri hesab olunurdu. Mətbuatda H.Məmmədovun keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun dəstəsi ilə yaxın münasibətlərinin olduğuna dair məlumatlar da yer alıb. Xüsusilə də MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Füzuli Əliyevlə sıx əlaqəsi olduğu deyilir. F.Əliyevin H.Məmmədovla sıx əlaqədə olduğu günlərdə iri sahibkarlar MTN-in Transmilli Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinə çağırılıb, orada var-dövlətləri, milyonları əllərindən alınıb. Ehtimal olunur ki, MTN çətesinə ötürülən orta və iri sahibkarlar barədə məlumatların əldə olunmasında H.Məmmədovun bilgiləri mühüm rol oynayıb. Lakin F.Məmmədovla yaxınlığına görə MTN işi üzrə istintaqa cəlb edilməyib.

Qeyd edək ki, 1995-ci ildən vergi orqanlarında çalışan və Vergi Auditi Departamentinin rəisi, Vergilər Nazirliyi yanında Lokal Gəlirlər Departamentinin baş direktoru və nazirin müşaviri kimi mühüm postlar tutan H.Məmmədovun F.Məmmədovun ardınca dərhal işdən azad ediləcəyini gözləyənlər çox olsa da, yeni nazir gözləniləninin əksinə olaraq, onu bir neçə ay vəzifəsində saxladı.

H.Məmmədovun illər uzunu sahibkarlardan topladığı pullar hesabına böyük biznes qurduğu bildirilir. Onun Nərimanov rayonunda yerləşən "Fosfor" hotelinin sahiblərindən biri, həm ölkə daxilində, həm xaricdə biznes qurumları, obyektləri və lyuks avtomobillər kolleksiyasına malik olduğu da qeyd edilir. Yayılan məlumatlara görə, onun Novxanıda, Bilgəhdə, Şüvəlanda və şəhərin bir neçə yerində villaları, hündürmərtəbəli binaların altında 5-10 min kv metrlə ölçülən obyektləri var.

Bunlarla yanaşı, Habil Məmmədovun Çexiyada da qiyməti bir neçə milyon dollarla ölçülən hotelə sahib olduğu da söylənilir.

Sabiq vergi məmurunun qiyməti 200 min-dən yuxarı olan bir neçə avtomobilinin olduğu, avtomobil kolleksiyasında "Brabus", "Lexus", "Mercedes" S clas və digər markaların yer aldığı bildirilir.

Xatırladaq ki, F.Məmmədov işdən azad edildəndən az sonra 10-dək sahibkar vergi orqanlarından məhkəməyə şikayət etmişdi. Ehtimal olunur ki, bu şikayətlər üzrə aparılan araşdırmanın bir ucu H.Məmmədova qədər gedib çıxıb. Onun vəzifədən alınmasında Vergilər Nazirliyində tamamilə yeni struktur formalaşdırmağa başlayan yeni nazirin köhnə sxemlərin qurucularından qurtulmaq istəyi də mühüm rol oynayıb.

❑ **TURQUT,**
**"Yeni Müsavat"**

# "Milli Məclisin xüsusi iclasının çağırılması nəzərdə tutulmayıb"

## Akif Nəsirov: "Bu günlərdə millət vəkilləri öz seçicilərinin yanındadırlar, onların qayğıları ilə məşğuldurlar"

**İyulun 3-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində baş verən qəzanın araşdırılması, zəruri tədbirlərin görülməsi ilə əlaqədar prezident səviyyəsində tapşırıqlar verilib. Eyni zamanda dövlət başçısının sərəncamı ilə yaradılmış komissiya toplaşaraq mövcud vəziyyəti müzakirə edib.**



Artıq ölkənin tam şəkildə elektrik enerjisi ilə təchiz olunduğu ilə bağlı rəsmi açıqlama da verilib. Amma problemin bir daha yaşanmayacağına tam təminatın olmadığı barədə də müxtəlif ekspertlər səviyyəsində fikirlər səslənir. Hesab olunur ki, milli təhlükəsizliyimizi təhdid edən bu kimi problemlərin tam aradan qaldırılması istiqamətində vacib işlər həyata keçirilməlidir. Maraqlıdır, yaranmış vəziyyətlə əlaqədar Milli Məclisin fövqəladə, yaxud növbədənkənar iclasının keçirilməsi nəzərdə tutulurmu? Doğrudur, parlament yaz sessiyasının ardınca növbədənkənar sessiyasını da başa vurub və tətilə gedib. Ancaq ölkədə fövqəladə hallar yaşanan zaman parlamentin xüsusi iclaslarının çağırılması normal sayılır, bu, qanunun ruhuna da uyğundur.

**Bununla əlaqədar "Yeni Müsavat"ın sorğusunu cavablandıran Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Nəsirov bildirdi ki, ölkədə yaranmış enerji böhranı dövlət başçısının nəzarəti altında həllini tapıb:** "Artıq hamı bilir ki, bütün bu məsələlər ölkə başçısının nəzarəti altındadır, müvafiq təşkilatlar hamısı öz işlərini görürlər. Bu gün əhalinin heç bir əziyyət çəkməməsi üçün istənilən səviyyədə işlər görülür. Yəqin ki, Prezident Administrasiyasının bununla bağlı məlumatı ilə də tanışsınız. Görülən işlərlə bağlı ictimaiyyətə də mütəmadi məlumatlar verilir. Artıq hər şey öz qaydasındadır. Təbii ki, Milli Məclisin üzvləri də əllərindən gələn köməyi edirlər. Bu günlərdə millət vəkilləri öz seçicilərinin yanındadırlar, onların qayğıları ilə məşğuldurlar. Cənab prezidentin rəhbərliyi ilə görülən işlər sayəsində əhalinin problemləri həll olunur. Həmçinin ölkə rəhbərliyi səviyyəsində, prezidentin sərəncamı ilə artıq komissiya yaradılıb və işləyir. İşlər hazırda yoluna düşür və baş verən qəzanın səbəbi aydınlaşdırılır, müvafiq tədbirlər görülür".

**A.Nəsirov qeyd etdi ki, bu vəziyyətlə əlaqədar Milli Məclisin xüsusi iclasının çağırılması nəzərdə tutulmayıb:** "Şəxsən mən buna heç ehtiyac da görmürəm. Dediyim kimi, artıq bütün tədbirlər həyata keçirilib".

❑ **ELŞAD,**
**"Yeni Müsavat"**

# "Pambıqçılar təhlükəsizlik qaydalarına riayət etməlidir" - Qida Təhlükəsizliyi Agentliyi



**Qida Təhlükəsizliyi Agentliyi pambıqçılıq təsərrüfatlarında çalışan işçilərin təhlükəsizliyinin qorunması, pestisidlər, aqrokimyəvi maddələr və digər bitki mühafizə vasitələrindən düzgün istifadə qaydalarının təşviqi ilə bağlı regionlarda maarifləndirici görüşlər keçirir.**

Agentlikdən "APA-Economics" verilən xəbərə görə, qurumun əməkdaşları iyulun 4-də yerli və xarici şirkətlərin nümayəndələri ilə birgə Beyləqan rayonunda yerləşən pambıq sahəsinə baxış keçiriblər. Pambıq istehsalı ilə məşğul olanlara sanitar-gigiyena normaları və təhlükəsizlik texnikası qaydaları barədə ətraflı məlumat verilib, pestisidlərin istehsalı, daşınması, istifadəsi, texniki təhlükəsizlik qaydaları və təlimata riayət edilməsinin vacibliyindən danışılıb. Bildirilib ki, pestisidlərlə iş zamanı təhlükəsizlik məsələlərinə və ətraf mühitin qorunmasına xüsusi diqqət yetirilməli, ağır zəhmət tələb edən işlər maksimum mexanikləşdirilməli və avtomatlaşdırılmalı, preparatların tətbiqində ən qabaqcıl texnologiyalar tətbiq olunmalıdır.

Agentliyin Təftiş və dövlət nəzarəti şöbəsinin əməkdaşları isə preparatlardan istifadə zamanı onun tətbiq qaydaları, xüsusiyyətləri, toksiklik dərəcəsi, məhdudlaşdırıcı hallar barədə məlumat veriblər.

Görüşün sonunda sahibkarları maraqlandıran suallar cavablandırılıb, pestisidlərdən istifadə zamanı təhlükəsizlik qaydalarına dair təlimatlar təsərrüfat rəhbərlərinə və pambıq sahəsində çalışan işçilərə paylanılıb.

YENİ MÜSAVAT
N 143 (7032) 5 iyul 2018




# Vergi-biznes münasibətlərində yumşalma siyasəti

## Vergi orqanlarındakı struktur islahatlarından doğan nəticə; korrupsiya riskini azaltmağa çalışılacaq

**Məlumat verdiyimiz kimi, Vergilər Nazirliyində yeni struktur formalaşdırılıb. İyulun 1-dən fəaliyyətə başlayan struktura nazirliyin Aparatı, Sənədlərlə iş və vətəndaş müraciətlərinə baxılması departamenti (Katiblik), Vergi auditi, iqtisadi təhlil və ekspertiza, Vergi siyasəti, Vergi öhdəliklərinin icrasına nəzarət, Vergi ödəyicilərinə xidmət, Dövlət qeydiyyatı və uçota nəzarət, İkitərəfli və çoxtərəfli sazişlərin icrasına nəzarət, Hüquq, Yerli qurumların fəaliyyətinin əlaqələndirilməsi, Rəqəmsal vergi inzibatçılığı, İnsan resursları, Maliyyə, Daxili təhlükəsizlik departamentləri, habelə Media və Kommunikasiya Mərkəzi daxildir.**

"Yeni Müsavat"ın məlumatına görə, nazirlik bildirir ki, struktur islahatlarının əsas məqsədi vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, vergi inzibatçılığının əlverişli biznes mühitinin formalaşdırılmasına yönəldilməsi, korrupsiya və digər neqativ hallarla mübarizə sahəsində fəaliyyətin gücləndirilməsidir.

Qurumda həyata keçirilən struktur dəyişikliyinin bir istiqaməti qeydiyyat sahəsi ilə bağlıdır. Nazirlikdən verilən məlumata görə, sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı prosesi yeni yaradılan Dövlət qeydiyyatı və uçota nəzarət departamentinə həvalə edilib. Sənədlərlə iş və vətəndaş müraciətlərinə baxılması departamentinin (Katiblik) baş direktoru Nigar Alimova bildirib ki, vergi ödəyicilərinin düzgün uçot məlumatları mühüm əhəmiyyət daşıyır: "Vergilər Nazirliyi həm daxildə strukturlararası, həm də digər dövlət orqanları ilə düzgün uçot məlumatlarının verilməsi kimi mühüm vəzifəni həyata keçirir. Yeni yaradılmış struktur dövlət qeydiyyatı sahəsində mövcud olan işin keyfiyyətini artırılması, mütərəqqi yeniliklərin ölkəyə gətirilməsi, uçot-qeydiyyat məlumat bazalarının dürüstləşdirilməsi istiqamətində fəaliyyət göstərəcək".

Ötən illərdə vergi orqanları ilə biznes arasındakı münasibətlər heç də sağlam əsaslar üzərində qurulmamışdı. Bu baxımdan, adıçəkilən orqanlardakı bütün dəyişikliklərin qayəsində bu münasibətlərin sağlam, ən əsası da biznesin inkişafına gətirəcək məcraya yönəldilməsi dayanmalıdır. Əks halda, bu münasibətlər daha da kəskinləşəcək, ölkədə sahibkarlığın inkişafına böyük zərbə vurulacaq.

Bu nöqteyi-nəzərdən, Vergilər Nazirliyinin strukturundakı ən vacib institusional yeniliklərdən biri nazirliyin Sənədlərlə iş və vətəndaş müraciətlərinə baxılması departamentində (Katiblik) İnzibati şikayətlərin araşdırılması idarəsinin yaradılması hesab edilir.

Nazirlikdən verilən məlumata görə, yeni idarə vergi ödəyicilərindən daxil olan şikayətlərin baxılması işinin təkmilləşdirilməsi və funksional struktur vahidlərinin vəzifə öhdəliklərinin keyfiyyətli icrasının təmin edilməsi məqsədilə yaradılıb.

Bildirilib ki, yeni idarənin yaradılması faktiki olaraq, vergi orqanlarında müstəqil arbitr funksiyalarına malik yeni bir apelyasiya institutunun formalaşmasına gətirəcək. Vergi orqanlarının fəaliyyətindən inzibati şikayətlərin baxılması, bütövlükdə şikayət institutu bir struktur altında cəmləşdiriləcək.

**N.Alimovanın sözlərinə görə, yeni strukturun yaradılmasının əsas məqsədi vergi orqanlarında apellyasiya institutunu təkmilləşdirməklə baş verməehtimalı yüksək olan korrupsiya elementlərinin sayını sıfıra yaxınlaşdırmaqdır:** "Bu struktur dəyişikliyi ilə inzibati şikayətə baxan yeni bir apelyasiya institutu formalaşır ki, bu da həm funksional strukturların işinin daha keyfiyyətli qurulması, həm qanunsuz vergi yoxlamalarının, kameral hesablamaların və operativ nəzarət tədbirlərinin sayının azaldılması, həm də nəzarət tədbirlərində risk elementlərinin minimallaşdırılması məqsədini daşıyır".

**Yeni apelyasiya sistemində inzibati şikayətlərə baxan struktur yerli orqanların fəaliyyəti, qəbul etdiyi qərarların qanunvericiliyə uyğun olub-olmamasını araşdıracaq, nöqsanlar müəyyən edildiyi halda qərarlara məsul olan vergi orqanları əməkdaşları barədə müvafiq intizam tənbehi ilə bağlı rəhbərlik qarşısında məsələ qaldıracaq. Bu zaman inzibati şikayətlərə funksional rəhbərliyi həyata keçirən yuxarı orqan tərəfindən deyil, arbitr rolunda çıxış edən yeni struktur tərəfindən baxılacaq. Bu addımlar nəzarət tədbirini həyata keçirən yoxlama strukturları ilə vergi ödəyicisi arasındakı münasibətlərin normallaşdırılması, vergi ödəyicisi, vergi əməkdaşı və rəhbər strukturun münasibətlərinin açıq və bərabərhüquqlu səviyyəyə gətirilməsi məqsədi daşıyır:** "Vergilər Nazirliyi sahibkarlıq subyektlərinin nəzərinə çatdırır ki, vergi sistemində korrupsiya hallarının kökündən kəsilməsi üçün ciddi addımlar atılır və sahibkarlar onları narahat edən ən xırda məsələlərlə bağlı, xüsusən korrupsiya halları, vergi əməkdaşlarının hərəkət və hərəkətsizliyi ilə bağlı bütün mövcud kommunikasiya vasitələri ilə, o cümlədən 195-1 Çağrı Mərkəzi, Vergilər Nazirliyinin rəsmi internet saytında olan əlaqə kanalları vasitəsilə yazılı müraciət edə bilərlər".

**Vergilər Nazirliyi tərəfindən həmçinin iqtisadiyyatın real sektorunun və vergi ödəyicilərinin fəaliyyətinin mikroiqtisadi səviyyədə araşdırılması həyata keçiriləcək. Nazirliyin İqtisadi təhlil və ekspertiza Departamentinin baş direktorunun müavini Elçin Ağakişiyev bildirir ki, vergi sistemində əvvəllər də risklərin təhlili və analitik araşdırmalar mövcud olub:** ""lakin bu məlumatların daha dərin səviyyədə araşdırılması və əlaqələndirilməsi, müəssisənin mikroiqtisadi səviyyədə təhlil edilməsi zəruridir. Əsas hədəfimiz vergi sisteminin məlumat bazasını (bunlara dövriyyə göstəriciləri, vergi ödəmələri, anbar ehtiyatları, müəssisənin hansı ticarət markası altında işləməsi və s. aiddir) optimallaşdırmaqla vergi ödəyicilərinin fəaliyyət göstərdiyi ayrı-ayrı iqtisadi fəaliyyət sahələrinin mövcud vəziyyətini tam təhlil etmək imkanlarının əldə edilməsidir. Bu əsasda müəssisələr səviyyəsində mikroiqtisadi göstəricilərin geniş təhlili aparılacaq. Bu təhlillər müəssisələrin vergi ödəmələri sahəsində vəziyyətini tam açıqlığı ilə ortaya qoyacaq".

Bununla yanaşı, Vergilər Nazirliyi vergi ödəyicilərində mühasibat uçotunun düzgün aparılmasının bərpası və vergi ödəmə mədəniyyətinin təmin edilməsi sahəsində ciddi addımların atılmasını nəzərdə tutur. Sahibkarlıq subyektlərində uçot və hesabatlılığın qaydaya salınması təkcə vergi ödəmələri üçün deyil, ümumilikdə idarəedici qərarlar üçün də vacibdir. E.Ağakişiyevin sözlərinə görə, Vergilər Nazirliyi vergi ödəyiciləri ilə əməkdaşlığı elə qurmaq niyyətindədir ki, sahibkarlar şəffaf fəaliyyət göstərməyin iqtisadi cəhətdən səmərəli, əlverişli və sərfəli olduğunu başa düşsünlər.

Eyni zamanda iqtisadiyyat üçün həyati əhəmiyyət daşıyan bir sıra sahələrdəki iqtisadi proseslərin dərindən araşdırılması, bu araşdırmanın nəticələri əsasında vergi orqanlarının həmin sahələrdə iş keyfiyyətinin artırılması nəzərdə tutulur. Bu məqsədlə üç mühüm istiqamət - aksizli mallar, neft-qaz fəaliyyəti iştirakçıları və maliyyə-sənaye qrupları üzrə ayrıca iş aparılacaq.

Onu da qeyd edək ki, yeni strukturun fəaliyyətə başlaması ilə əlaqədar Vergilər Nazirliyində ciddi kadr dəyişikliyi olub. Vergi auditi departamentinə Camal Qasımov, Vergi ödəyicilərinə xidmət departamentinə Elçin Məmmədov, Dövlət qeydiyyatı və uçota nəzarət departamentinə Ələkbər Məmmədov baş direktor təyin edilib (APA).

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Sevimli olmayan başçının ağır günü



**Xalid KAZIMLI**

**Yer üzündə yüzdəyüz sevimli insan yoxdur. Motsart dirilib gəlsin, yenə kimsə onu zəhərləmək istəyəcək. Monqolların türbəsini and yerinə çevirdiyi Çingiz xan olsun, "diktator" deyib, Kim Çen Inla müqayisə edənlər tapılacaq.**

Çarli Çaplin sağ olsa, onu adi vayner yerinə qoymayanlar olacaqdı.

Biz Üzeyir Hacıbəyovun bəstəkarlığına, Mikayıl Müşviqin şairliyinə, Elçibəyin vətənpərvərliyinə, Messinin futbolçuluğuna ağız büzülən dünyada yaşayırıq.

Ayrı-ayrı insanlar çox ədalətsiz və qərəzlidirlər və onlar həmişə dünyanın ən gözəl, ən tamahsız, ən təmiz insanlarını belə vurmağa, qırmağa, ləkələməyə hazırdırlar.

Bəlkə də bu normaldır. Dahilərdən biri deyib ki, yeganə hər kəsin xoşuna gələn şey yüzlük dollar əskinasıdır, qalan hər şeyin hamı tərəfindən sevilməsi mümkün deyil.

Ancaq ayrı-ayrı şəxslərin kiminsə, xüsusilə də parlaq şəxsiyyətləri sevməməsi müstəsna hallardır. İstisna isə, bildiyimiz kimi, qaydanı pozmur. Ümumilikdə xalqın gözü tərəzidir.

İndinin özündə də cəmiyyətin gözündə sevimli insanlar var və daima olacaqlar.

Dövlət məmurlarının arasında belələrinin az olmasının xüsusi səbəbləri var (bəzilərinin qədri sonradan bilinir). Onlar parlaq simalar olmaya bilərlər, amma başlarına bir şey gəlsə, eli-obası dərindən üzülər.

Deputatların arasında da elələri var. Az-az istəməyənləri olsa da, onları sevimli insan saymaq olar.

Ancaq belə görünür ki, srağagün başına sui-qəsd kimi pis hadisə gəlmiş Elmar Vəliyev sevimli insan deyilmiş.

Çünki sui-qəsddən dərhal sonra sosial şəbəkədə onun barəsində xeyli yaman-yaman sözlər yazıldı. Ağır-ağır kəlmələri yumşaq yazanlar da oldu, əndazəsini aşanlar da, nifrət püskürənlər də.

Bəlkə də Vəliyevin yerinə digər adı çıxmış İH başçılarından biri olsaydı, onun haqqında da eyni şeyləri yazardılar.

Ola bilər, bəzi İH başçılarının başına eyni iş gəlsə, ağır kəlmələri dilinə gətirməyi çox adam özünə rəva görməz, gətirsə də, qınanardı.

Fakt isə budur ki, Vəliyevi müdafiə etməyə cəhd göstərənlər də qınandı. Hətta onun barəsində "ölüb" xəbərini təkzib edərək, "sağdır" xəbərini yayan telejurnalist Mirşahin də söyüldü.

(Adam sağdırsa, onun sağ olduğu barədə xəbəri yayan jurnalistin tənqid olunması başqa cür absurddur).

Sanki adamlar bu xəbəri gözləyirmişlər. İH başçısının başına vurulan gülləyə görə əndişələnməyən, bunun bir sui-qəsd olduğunu gözardı edən insanlar dilə gətirməsələr də, cinayətə haqq qazandırmış olurlar.

Həmin cani ağır şəkildə cəzalandırılanda da çoxlarının vecinə olmayacaq. Hərçənd onu da qəhrəmana çevirməyə cəhd edənlər də olacaq.

Bir caninin, qatilin qəhrəman yerinə qoyulmasıE Günümüzün faciələrindən biri də budur.

Elmar Vəliyev bir caninin qətl törətmək təşəbbüsünə insanlar tərəfindən kütləvi bəraət verdirəcək qədər "səriştəli və ədalətli" dövlət qulluqçusu olub. Bu, ortadakı ən bariz faktdır.

Bundan əvvəl də biz onun iş üslubu haqqında çox şeylər eşitmişdik. Polis rəisi tərəfindən kəllə zərbəsinə məruz qalması (bu, danılması mümkün olmayan, hadisə şahidlərinin təsdiq etdiyi faktdır), ictimai yerdə insanlarla, tabeçiliyində olanlarla söyüşlə danışması kimi onlarla olay var ki, Vəliyevi çoxdan əfsanələşdirmişdi.

Bu baxımdan caninin ölkənin üçüncü böyük şəhərinin başçısına hansı motivlərlə qəsd etməsi faktı bir şeydir, sui-qəsdə məruz qalan şəxsin ictimaiyyətin, rəhbərlik etdiyi insanların sevimlisi olmaması, hətta tam əksinə, ölümü arzulanacaq biri olması başqa şeydir.

Heç kəs əlitapançalı sui-qəsdçiyə haqq qazandıra bilməz. Çünki bir insanı öldürməyə təşəbbüs ağır cinayət əməlidir və heç kəs indilikdə bu cinayətin mayasında hansı motivin durduğunu bilmir.

Burada söhbət bir neçə yüz min insana rəhbərlik edən şəxsin xalq arasındakı reputasiyasından, şəxsi nüfuzundan gedir. Bu olay göstərir ki, əgər şəhər başçısı xalq tərəfindən birbaşa səsvermə yolu ilə seçilsəydi, o, heç vaxt xalqdan yetərli səs ala bilməzdi.

Dönüb-dolaşıb yenidən şəhər, qəsəbə başçılarının xalq tərəfindən seçilməli olduğu məsələsinə qayıdırıq.

Misal üçün, Türkiyəni götürək. Orada bələdiyyə sədrlərini, merləri xalq seçir və onlardan biri bu cür hücuma məruz qalanda on minlərlə adam küçələrə çıxır, etiraz bildirir, daha qol götürüb oynamır.



# O qədər də ölmədik

Zamin HACI
zaminhaci@gmail.com

*"...Balalara tanrı qıymaz!.. Yox, batsaq da günaha,-*
*Qaranlıqda yanır hələ balaların gözləri çıraq-çıraq.*
*Tanrı bizi görmür daha, Ümid yoxdu Allaha,-*
*qaranlıqdan bizi ancaq*
*balalar çıxardacaq..."*

***(Ramiz Rövşən)***

**Biz universitetə qəbulda test üsulunun ləğvi təhlükəsindən narahat idik, ancaq qəfildən başqa dövlət orqanları da bu üsula keçdilər. İşıq sönəndə metro fəaliyyətini dayandırmışdı, daha sonra isə dedilər ki, test edirik, yaxın zamanda qatarlar təzədən işləyəcəkdir. Su idarəsindən elektrikə, qazdan saza qədər hər kəs özünü buraxıb test edirdi. Bircə paz idarəsi həmişəki kimi fəaliyyətini dondurmamışdı, sabitliyin keşiyində idi.**

Avtobus nəqliyyatı da doğrudur, test üsuluna keçmədi, ancaq orada daha inqilabi qərar qəbul olundu: camaatı pulsuz daşıyıb bəzi dayanacaqlarda (el dilində desək, astanovkalarda) su paylayırdılar. Qara fikir olmasın, adamın ağlına gəlir ki, bəlkə qaranlıq bir neçə gün davam eləsə Bakı Nəqliyyat Agentliyi bizə qayğanaq da bişirərdi. Asfaltın üstündə. Nəticədə tam formada Cırtdanın nağılı yaranardı, göydən üç alma düşərdi, divi də çayda boğardıq.

Bir məşhur, bir növ cındırından cin ürkən internet zarafatı var, deyir, internet kəsilmişdi, evdəkilərlə tanış oldum, pis adamlar deyilmişlər. İşıqsız günlərdə xalqımız da beləcə mehribanlaşdı, ailələr yaxınlaşdı, valideynlər uşaqlarının üzünü görmüş oldular. Mən özüm xeyli zəhmətkeşimizlə ünsiyyətdə oldum və açıq desəm, xalqımızın təhsil səviyyəsinin necə yüksəldiyini bir daha gördüm. Bu da, əlbəttə, elə təhsildə test üsulunun, Misir islahatlarının, Bolonya kurrikulumunun, botulizmli balon turşularının, kərə ətirli Möcüzə yağının, nə bilim, başqa daha nələrin nəticəsidir. Örnək üçün, rastlaşdığım hər 10 nəfərdən 9-u təxminən belə cümlə işlədirdi: "İşıq yanmır, bunu anladıq, bəs su niyə gəlmir?" Ləzzət eləyirdi, mən ölüm. Sən demə, uca millətimizin çoxu elə zənn edir ki, Bakıya su haradansa arx, kanal, kəhriz, bulaq vasitəsilə özbaşına, yenə el dilində desək, özxoduna şırhaşırla axıb gəlir, ta bunun nasos stansiyalarına, motorlara, elektrikə ehtiyacı-zadı yoxdur. "Azərsu" isə əlində lapatka arx boyunca gəzib, suyu palçıqdan, çör-çöpdən təmizləmək üçündür. Vallah, belə savadla bizi hələ qaranlıqda az qoydular. Mən bu hökumətin yerinə olsam işıqları yandırmazdım, bəlkə millət başını qaldırıb ulduzların olduğunu da kəşf edərdi. Zarafat eləmirəm, millət o qədər "başını aşağı salıb, işini görmüşdür" ki, artıq səmada ulduzların, Ayın olduğunu da bilmir. O cümlədən əgər uçaskovı bir gün qərar çıxartsa ki, Sirius ulduzu rəisin poqonundan düşən işıqdır, hər kəs buna itaət edər. Əslində müdrik qərardır, çünki ulduz kimə lazımdır? Ulduzu qazanda qaynadıb arvad-uşağa vermək olmur. Biz də düşək yerə, yerimiz azalır.

Qaranlıqdan sui-istifadə edən qara qüvvələr bəzi icra başçılarımıza atəş açdılar ki, bununla da bizə yaxın tariximizin qara günlərini xatırlatdılar. Gəncədə belə şeylər olur. Orada heç vaxt icra hakimiyyətlərini sevməyiblər. Hələ bəziləri qoşun yığıb Bakıya tərəf gəlmişdi. Hərçənd indi bizdə o cür pis zəmanə deyildir, bəs niyə belə olsun? Məncə, Bakı Avtobus İdarəsinin müdrikliyindən öyrənməli şeylər çoxdur. Elə ərazinin özündə də vaxtilə bu cür oğlanlar yaşamışdır. Biri vardı, tort bişirirdi, paxlava kəsirdi, çay qaynadırdı, nə bilim, nə hoqqa çıxardırdı... Təki millətin ağzı şirin olsun. Ona görə millət də onu sevirdi, xahiş eləyib mərkəzə tərəf göndərdilər. Yoxsa səni neçə ildir ora başçı qoyublar, Allahın bir nanəli qənfetini qıyıb millətə vermirsən ki, alın, qoyun ağzınıza, yavaş-yavaş sorun, dövlətimizin qayğısını ahəstə qiymətləndirin və sairə. Atalar sözümüz var, deyir xalq icra başçısının əlinə baxıb ayağına güllə sıxar. JEK müdirini kostyumuna görə qarşılayıb, ev pulu ilə yola salarlar. Köşə yazarını klaviaturasına görə qiymətləndirərlər.

İndi söz əlaqədar təşkilatlarındır - hərdən işığı söndürün, canlanma olsun. "O qədər də ölmədik" - Cem Yılmaz demişkən.

---

# Ermənistan "çarpaz təzyiq"lə üz-üzə: NATO-Rusiya seçimi Qarabağ savaşını yaxınlaşdırır

## Dağlıq Qarabağla birgə Qərbin qucağına atılmağı hədəfləyən işğalçı ölkədə təlaş böyüyür; erməni KİV-lərindən həyasız tələb: "NATO, ABŞ və AB bizi Rusiya və Azərbaycandan qorumalıdır"; təcavüzkar iki istiqamətdən vurula bilər - Qarabağ və Naxçıvan...

**Ermənistanın baş naziri Nikol Paşinyanın iyulun 11-də Brüsseldə başlayacaq NATO sammitinə qatılması artıq dəqiqləşib. "Yeni Müsavat"ın məlumatına görə, bunu son olaraq, NATO baş katibinin siyasi məsələlər üzrə köməkçisinin müavini Ceyms Appaturay AzadlıqRadiosunun erməni redaksiyasına müsahibəsində təsdiqləyib. Alyans rəsmisi səfəri səbirsizliklə gözlədiyini gizlətməyərək deyib ki, "NATO Ermənistanla əlaqələri daha da dərinləşdirmək üçün Paşinyana başladığı islahatlarda kömək eləməyə hazırdır".**

"Mən tam əminəm ki, Ermənistandakı hakimiyyət dəyişikliyindən sonra bizim stabil əməkdaşlığımız davam edəcək. Hesab edirəm ki, Ermənistan illər ərzində NATO ilə qurulmuş əməkdaşlığı davam etdirmək əzmindədir" - bu da Appturayın sözləridir.

*****

Buna şübhə yoxdur. Ermənistanın mədəniyyət və təhsil nazirlərinə kimi, öz komandasını bütünlüklə Qərbə, ABŞ-a sadiq şəxslərdən təşkil eləmiş Paşinyan həqiqətən NATO-ya, Qərbə can atır. Bu danılmaz bir faktdır ki, indiyədək Ermənistanın heç bir hökuməti haqda NATO səviyyəsində belə isti sözlər səslənməyib, vədlər verilməyib, reverans və jestlər edilməyib, ona qucaq açılmayıb, qısası, "gəl-gəl" deyilməyib.

Avropa Birliyi (AB) rəsmilərinin də eyni qəbildən açıqlamaları nəzərə alınarsa, açıq görünür ki, NATO-nun, AB-nin, bütövlükdə Qərbin Nikol Paşinyandan gözləntisi böyükdür. Əsas gözlənti - əlbəttə ki, Ermənistanın Rusiya ağuşundan çıxıb Qərbə sarı gəlməsi ilə bağlıdır. Ancaq necə? Cənubi Qafqazda Rusiyanın yeganə legitim hərbi qalası olan və öz varlığına, təhlükəsizliyinə, ordusuna aldığı ucuz silahlara, Azərbaycan ərazilərini işğalda saxlamağa görə müstəsna olaraq Rusiyaya borclu olan Ermənistanın indiki rəhbərliyi bunu necə edəcək? Qərbin üstü şirin, içi acı "konfeti"nə aldanıb tələyə düşməyəcək ki? Kremlin qəzəbinə gəlməyəcək ki? O zaman NATO, AB İrəvana, Paşinyana kömək edəcəkmi? Gürcüstanda edə bildimi - NATO, Avropa uzaqda, Rusiya isə yaxında, Ermənistanın içində ikən...

*****

Məsələ də bundadır. Belə görünür, acı gerçəyi yavaş-yavaş İrəvanda dərk eləməyə, 11 iyul tarixi yaxınlaşdıqca daha güclü təlaş keçirməyə başlayıblar.

"Qərb Ermənistanın yeni hakimiyyətinə həm daxili və xarici siyasət sferasında, həm də müdafiə və təhlükəsizlik məsələlərində hərtərəfli dəstək vermək barədə dəqiq mesajlar verməkdədir. Lakin bütün bunlar özündə təhlükə də daşıyır - hansı ki, müharibə formasında Ermənistan və Dağlıq Qarabağın qarşısına çıxa bilər".



**"Yeni Müsavat" xəbər verir ki, bu barədə 1 in.am nəşrində Paşinyanın Brüssel səfəri ilə bağlı gözləntilərinə və Alyans, AB rəsmilərinin məlum bəyanatlarına həsr edilmiş baş məqalədə deyilir.**

**Məqalədə deyilir:** "Artıq bir aydan çoxdur ki, Azərbaycan Naxçıvan istiqamətində qüvvə cəmləyir. Paralel surətdə böyük silah arsenalının iştirakı ilə Dağlıq Qarabağın lap yaxınlığında 20 minlik iri təlimlərə başlanıb. Təlimlər təkcə silahların nümayişi ilə deyil, həm də təbliğati fonla müşayiət olunmaqdadır - hansı təbliğata ki, bizə müttəfiq sayılan bir dövlətin - Rusiyanın deputat və ekspert korpusunun təmsilçiləri də qatılıb. Politoloqlar - Maksim Şevçenko, İqor Korotçenko, Aleksandr Duqin, Dumanın deputatları - Dmitri Savelyev və başqaları Azərbaycana gediblər, burada Dağlıq Qarabağla "sərhəddə" (dırnaqlar bizimdir - "YM") hərbi hissələrdən birinə baş çəkib, 2016-cı ilin aprelindəki 4 günlük müharibə zamanı Azərbaycan ordusunun nəzarətinə keçmiş Lələtəpəyə qalxıblar, orada bir sıra anti-erməni bəyanatlar veriblər, Qarabağın Azərbaycan ərazisi olduğunu, problemin həllinin yalnız ərazilər qaytarılandan sonra mümkün olduğunu bəyan ediblər və s."

**Məqalədə bu hadisənin Moskvanın izni ilə baş verdiyinə şübhə edilmir:** "Başqa bir tanınmış rusiyalı politoloq, bilavasitə Kremlin nəzər-nöqtəsini ifadə edən Vladimir Yevseyev rusarmin-fo.ru portalına müsahibəsində son baş verənləri şərh edərkən açıq mətnlə bildirib ki, bunlar Ermənistanın Avropa və qərbyönlü siyasətinə cavabdır. "Ermənistan təkcə Rusiya xadimlərinin Azərbaycana özəl səfərlərindən yox, həm də Qərb və NATO ölkələri ilə yaxınlaşmasından narahat olmalıdır" - o deyib. Evseyev onu da deyib ki, Ermənistanın Qərb ölkələri ilə yanaşı, NATO ilə də təmaslarının genişlənməsi, o cümlədən Paşinyanın qarşıdakı NATO səfəri Rusiyanı ciddi şəkildə narahat edir. "Düşünürəm ki, Alyansla yaxınlıq Ermənistanın KTMT çərçivəsində qalmaq səylərinə uyğun deyil. Fikrimcə, rusiyalı ekspertlərin Azərbaycana özəl səfəri əgər Ermənistanı belə narahat edirsə, onda onu bu da narahat eləməlidir ki, NATO ilə həddən ziyadə əməkdaşlıq elənir ki?" - Yevseyev bildirib. Bu kimi bəyanatlar Azərbaycanın son vaxtlar hərbi vəziyyəti Moskvanın susqun razılığı ilə gərginləşdirdiyinin dolayı etirafından savayı bir şey deyil" - məqalədə bildirilir.

Baş verənlərə görə, erməni nəşri Qərbin də məsuliyyət daşıdığını və Ermənistana kömək etməli olduğunu qeyd eləməklə, birincinin üzərinə minnət qoymağa cəhd edir. Əslində isə "Biz Rusiyanı atıb sizə satılsaq, bizi Rusiyadan qorumalısınız" ismarış-tələbini göndərir: "Bu halda *(Rusiyanın Azərbaycanın əli ilə Ermənistana təzyiqə başlayacağı halda - "YM")* Ermənistan hakimiyyətindən daha çox, onun Qərb tərəfdaşları hərəkət etməlidirlər - hansı tərəfdaşlarla əlaqələrin dərinləşməsinin qarşılığını Ermənistan və Dağlıq Qarabağ müharibə ilə, insan və ərazi itkiləri ilə ödədə bilər. Hesab edirik ki, bu məsələ Nikol Paşinyanın Brüsseldə AB və NATO rəhbərliyi ilə görüşlərinin gündəliyinə salınmalıdır. Qərb əməldə göstərməlidir ki, onun bizə dəstəyi yalnız gəlişigözəl bəyanatlardan ibarət deyil".

*****

Qeyd edək ki, bu qəbildən təlaşlı şərhlər erməni KİV-lərində, xüsusən də Paşinyan hökumətinə yaxın qərbyönlü nəşrlərdə son günlər xeyli artıb. Necə deyərlər, iştah diş altındadır. Özünü təzədən bazara çıxaran, Qarabağı da "götürüb" Qərbə satılmaq istəyən Ermənistan həm Qərbə, NATO-ya indidən tələblər irəli sürməklə paralel, haqlı olaraq, rusun cəzasından ehtiyatlanır. Xəyanətin qarşılığını isə eyni vaxtda iki istiqamətdən - Qarabağ və Naxçıvan səmtindən gözləyir.

Olsun. Gec-tez işğalçının layiqli cavabı veriləcək. Bəs Rusiyanı işğalçı sayıb ona sanksiyalar təbliğ edən Qərb, ABŞ o zaman işğalçı Ermənistanı müdafiə edəcəkmi? Çətin. Ən azı o səbəbə ki, Ermənistan Qərb üçün, NATO üçün nə qədər dəyər kəsb eləsə də, bu, Azərbaycanın dəyərini üstələyə bilməz...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 143 (7032) 5 iyul 2018

**“Müharibə hər bir sahədə gedir, həmçinin də informasiya sahəsində. Odur ki, Rusiyanın informasiya mühiti və ictimai rəyi bizim üçün vacibdir. Bu mənada rusiyalı ekspertlərin Azərbaycana dəvət olunması, onlarla birlikdə Qarabağın işğaldan azad edilmiş ərazilərində tədbir keçirilməsi çox uğurlu hadisədir”.**

# “Rusiyanın informasiya mühiti və ictimai rəyi bizim üçün vacibdir”

## Cocuq Mərcanlıdan Ermənistanın işğalını lənətləyən, Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən rusiyalı deputat hədəfə alındı; **Tofiq Zülfüqarov:** “Azərbaycana dost münasibətində olan şəxslər bilməlidir ki, bizim ölkəmiz öz dostluğuna sadiqdir”

**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** bu fikirləri “Yeni Müsavat”a açıqlamasında bildirdi. Eks-nazir Rusiyanın bir qrup tanınmış ekspertinin, o cümlədən azərbaycanlı ekspertlər və deputatların iştirakı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində keçirilən tədbirdə, həmçinin ondan sonra Azərbaycanın ərazi bütövlüyü ilə bağlı bəyanatların səsləndirilməsi, torpaqların işğaldan azad olunması zərurətindən bəhs olunmasını təqdir etdi: “Burada keçirilən tədbir və verilən açıqlamalara Rusiyanın ermənipərəst qüvvələrinin reaksiyası kəskin olub. Bu da bu hadisənin əhəmiyyətini göstərən bir faktdır ki, onu müşahidə etdik. Biz dəfələrlə bu fikirləri demişik, Rusiyada müxtəlif hadisələr baş verir ki, onun birbaşa Qarabağ münaqişəsinə aidiyyəti var. Artıq Ermənistan bir faktor kimi Rusiyanın daxili və xarici siyasətində əhəmiyyətini itirir. Ermənipərəst qüvvələr təbii ki, bunun qarşısını almağa, Ermənistanın təhlükəsizliyini təmin etməyə çalışırlar. Odur ki, Azərbaycana bu kimi səfərlər davam etdirilməlidir. Çünki vacib problemlərin həllində ictimaiyyətin əhval-ruhiyyəsi çox vacibdir. Biz təbliğatı daha da gücləndirməliyik”.

Qeyd edək ki, Azərbaycana səfər edən ekspert və deputatlara qarşı ermənipərəst dairələrin hücumu da müşahidə olunur. Belə ki, işğal olunmuş Dağlıq Qarabağı Azərbaycanın ərazisi hesab edən Rusiya Dövlət Dumasının deputatına hücumlar başlayıb. **APA-nın Moskva müxbirinin xəbərinə görə, “Rossiya 1" telekanalında yayımlanan ”Vladimir Solovyovla axşam" siyasi tok-şousunda çıxış edən erməni əsilli hərbi-siyasi ekspert Semyon Baqdasarov bir müddət öncə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər edən Rusiya Dövlət Dumasının Liberal Demokrat Partiyasından olan deputatı Dmitri Savelyevi məhv etməyə çağırıb. Rusiya Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovskiyə müraciət edən S. Baqdasarov D. Savelyevi partiyadan qovmağa çağırıb:** “Necə olur ki, sizin deputat münaqişə bölgəsinə gedir, ağzına gələni danışır. Məhv edin onu, qovun onu. O, satqındır. Rusiya Federasiyasının düşmənidir. Heç olmasa, bu deputatın məsələsini həll edin. Mən ümid edirəm ki, Vladimir Volfoviç bu məsələni həll edəcək”.

**V. Jirinovski isə cavabında S. Baqdasaryanın dedikləri ilə razı olduğunu söyləyib. Verilişin müəllifi və aparıcısı, Ermənistanın fəxri vətəndaşı Vladimir Solovyov erməni ekspertə dəstək nümayiş etdirib. O, başını bulayaraq bunları deyib:** “Deputat Savelyev Ermənistanın deyil, Azərbaycanın Rusiyanın müttəfiqi olduğunu bəyan edib. Qarabağ və dağlıq əraziləri Azərbaycana verilməsini tələb edib və bunun yeganə düzgün qərar olduğunu söyləyib”.

Xatırladaq ki, iyulun 1-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində keçirilən “Bakı və Moskva arasında geopolitik ox: Azərbaycan Rusiyanın Cənubi Qafqazda yeganə müttəfiqidir” mövzusunda konfransda çıxış edən Rusiya Dövlət Dumasının Korrupsiya ilə mübarizə üzrə komitəsinin sədr müavini Dmitri Savelyev Dağlıq Qarabağ və ətraf 7 rayonun qeyd-şərtsiz, mütləq şəkildə Azərbaycana qaytarılmalı olduğunu vurğulayıb.

**Cocuq Mərcanlıda işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq, inkişaf işlərini təqdir edən rusiyalı deputat qeyd edib ki, Ermənistanda baş verən hadisələr nəzərə alınsa, Azərbaycanın Rusiya üçün dəyəri ikiqat artır:** “Azərbaycan nadir ölkələrdən biridir ki, burada rus dili inkişaf edir. Azərbaycan Rusiyanı Avropa Şurasında dəstəkləyir. Azərbaycan Rusiyanın Cənubi Qafqazda etibarlı müttəfiqidir. Baxmayaraq ki, biz Azərbaycana külli miqdarda silah satmışıq, amma bu, heç vaxt Rusiyanın öz əleyhinə yönələ bilməz. Ümid edirəm ki, Ermənistan müdrik olacaq və Qarabağ münaqişəsi öz həllini tapacaq”.

**Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev iyulun 3-də “Rossiya 1" telekanalında yayımlanan ”Vladimir Solovyovla axşam" verilişində onun ünvanına səslənən hədələrə münasibət bildirib. D. Savelyev APA-nın Moskva müxbirinə açıqlamasında V. Solovyovun proqramında səslənən fikirləri sayıqlama adlandırıb.** “Belə sayıqlamaları şərh etməyi gərəksiz hesab edirəm”, - deyə D. Savelyev vurğulayıb.


Tofiq Zülfüqarov

**Tofiq Zülfüqarov erməni dairələrinin bu cür hücumlarının gözlənilən olduğunu deməklə yanaşı, Azərbaycanın öz dostlarını müdafiə etməsini zəruri saydı:** “Təbii ki, biz Azərbaycanın dostlarına dəstək verməliyik. Azərbaycana dost münasibətində olan şəxslər bilməlidir ki, bizim ölkəmiz öz dostluğuna sadiqdir. Özü də Azərbaycan yalnız rusiyalı dostlarını yox, Avropadakı dostlarını da ermənilərin hücumlarından müdafiə etməlidir. Məsələn, Avropa Şurasında Azərbaycanın dostlarına qarşı hücumlar oldu, kampaniyalar həyata keçirildi. Ermənilər bu cür hücumlarla göstərmək istəyirlər ki, Azərbaycanla dostluq edən bu və ya digər ictimai xadim təhlükəsizlik şəraitində davam edə bilməz. Eyni zamanda biz də bu metodlardan istifadə etməliyik. Yaxud Bako Saakyan Amerikaya gedib, orada görüşlər keçirdi. Təbii ki, bu, lobbiçilik fəaliyyəti nəticəsində baş verdi. Təəssüflər olsun ki, bizdə buna aid məsələlər qaldırılmır. Yaxşı olardı ki, hüquq müdafiəçiləri məsələ qaldırardı ki, nəyin əsasında ABŞ konqresmenləri Bako Saakyanı qəbul etdilər? Yoxsa konqresmenlərin iş-gücü qurtarmışdı Saakyanla görüşə maraq göstərsinlər. Təəssüf ki, bu istiqamətdə zəruri addımlar atılmadı”.

❑ E.PAŞASOY,
“Yeni Müsavat”

# Rusların “5-7 rayon söhbəti” nə məsələdir?..



Hüseynbala SƏLİMOV

**Əslində tanınmış rusiyalı politoloqların tez -tez Qarabağın işğal olunmuş beş və yaxud da yeddi rayonunun Azərbaycana qaytarılması məsələsini gündəmə gətirməsi müsbət haldır. Bununla onlar tək Qarabağ sülh prosesinin mühüm bir mərhələsini və şərtini aktuallaşdırmırlar, həm də diplomatları və siyasətçiləri mürgüləməyə qoymurlar: məsələn, onlardan fərqli olaraq biz nəinki çox hörmətli Lavrov cənablarının, hətta Rusiya XİN sözçüsü M.Zaxarovanın dilindən bu şərti sonuncu dəfə nə vaxt eşitdiyimizi xatırlamırıq.**

Politoloqlar isə danışırlar. Hətta bu günlərdə A.Duqin belə Ermənistandakı prsoseslərdən sonra ilk dəfə sükutunu pozdu və elə burada-Azərbaycanda keçirilən forumda çox mənalı bir işarə verdi: “Hazırda Azərbaycanla münasibətlər Rusiya üçün daha öndədir”.

Təbii ki, bunun başqa səbəbləri də var: rusiyalı politoloqların hamısı olmasa da, bir hissəsi Kremlin siyasi mətbəxinə girişi olan insanlardır və onlar həm də öz bəyanatları ilə müəyyən mənada Kremlin regiondakı proseslə bağlı ovqatını da ifadə etməyə çalışırlar.

Burada isə məsələ belədir ki, Kreml N.Paşinyan hökumətinə çox ehtiyatla yanaşır. Hətta ən təmkinli Kreml sözçüləri “180 dərəcə dönüş baş verməyəcək!” desələr də, bunun ardınca “Ermənistandakı hökumətin Qərbə meylli olması aşkar sezilir”- deyə əlavə etməyi də unutmurlar. Hətta belə fikirlər də səslənir ki, Paşinyan özünün düşünülməmiş siyasi bəyanatları və hərəkətilə Rusiyanı Azərbaycan və Türkiyə qarşısında pis vəziyyətdə qoya bilər. Ona görə də Azərbaycanyönümlü bəyanatlarda heç sözsüz ki, gələcəkdə Paşinyanın açıq şəkildə cızıqdan çıxacağı halda onu Bakının əlilə cəzalandırmaq niyyəti də var...

Amma yenə də deyirik ki, çox tanınmış politoloqların - həm hakimiyyətə, həm də ictimai rəyə təsiri olan bu adamların rayonların geri qaytarılması haqdakı çağırışlarına ümumi halda müsbət yanaşmaq lazım gəlir. Biz onların bir neçəsinin bu xüsusdakı son bəyanatlarına maksimum dərəcədə diqqətlə yanaşmağa çalışdıq: nəzərə almaq lazımdır ki, onların çoxu rayonların “hər hansı əlavə şərt olmadan qaytarılmasını” deyirlər və bu, da əlbəttə ki, Azərbaycanın mövqelərinə cavab verir.

Sözsüz, 7-nin 5 olması, ümumiyyətlə, məhdud şəkildə rayonun qaytarılması söhbəti müəyyən narazılıq və şübhələr yaradır. Amma bir daha deyirik ki, bu adamlar ilk növbədə Rusiyanın politoloqlarıdır. Yalnız ətraf bir neçə rayonun Azərbaycana qaytarılması o deməkdir ki, Rusiya Qarabağ müstəvisindən əlini götürmək istəmir, bütün hallarda, burada özü üçün “təsir rıçaq”ı saxlayır. Səbəbi də budur ki, Azərbaycana sonadək etibar etmirlər, düşünürülər ki, qədim rus məsəlilə - “doveryay, no proveryay!” prinsipilə hərəkət etsələr, daha düzgün olar.

Əlbəttə ki, politoloqlar da Rusiya siyasətinin bu özəlliklərini nəzərə alırlar. Amma olsun. Siyasət siyasətdir, burada heç kimə öz maraqlarını düşünməyi yasaq etmək olmaz. Əsas odur ki, rayonların qaytarılması söhbəti bütün hallarda siyasi və ictimai rəyi Azərbaycana tərəf yönəldir və sabah ilk əlverişli şəraitdə Bakı bu rayonları öz gücünə qaytaranda, o halda heç kimin buna iradı və etirazı olmayacaq.

Ununtmamılıyıq ki, Qarabağın bizim nəzarət etdiyimiz hissəsinin coğrafiyası genişləndikcə Ermənistanın nəinki hərbi, hətta diplomatik və siyasi manevr imkanları da daralır, daha o, əvvəlki kimi diqtə edə bilmir.

Di gəl, indi nə baş verir? Ermənistan Dağlıq Qarabağdan kənarda xeyli ərazi tutub və diqtə edir ki, Dağlıq Qarabağın müstəqilliyyini tanıyın, biz də digər rayonları qaytaraq! Hazırki vəziyyətdə bizim buna qarşı “yox!” sözündən başqa sərəncamımızda qeyri təzyiq imkanımız yoxdur!..

Əlbəttə, iqtisadi təzyiq işini görür, amma bunlar hələ dizlərini yerə qoymaq istəmirlər. Ona görə də ordumuzun Ermənistana qarşı son illərdəki təzyiqləri bizimçün çox önəmlidir; təcavüzkarı danışıqlara və güzəştə məcbur etməkçün güc göstərmək lazımdır. Bunun da yolu ilk fürsətdəcə ermənilərin işğal etdiyi ərazilərin coğrafiyasını kiçiltmək, Dağlıq Qarabağ ətrafındakı həlqəni daraltmaqdır.

Ermənistanda cərəyan edən proseslərdən də çox şey asılıdır. Əgər N.Paşinyan hökuməti indi və ya yaxın gələcəkdə bizə işarə versə ki, Rusiya müstəvisindən bir az Qərbə tərəf hərəkət etmək və Qarabağ siyasətini də dəyişmək istəyir - o halda biz də fərqli siyasət yürüdə bilərik. Amma hələ bunun işarəsini görmürük, əksinə Paşinyan sərsəm bəyanatları ilə vəziyyəti bir az da mürəkkəbləşdirir. Ona görə də biz də öz fürsətiməzi əldən verməməli və lazım gələrsə, Moksva ilə İrəvan arasındakı soyuqluqdan da istifadə etməliyik- unutmayaq ki, Ermənistan torpaqlarımızın 80-90 faizini Bakıda siyasi böhranlar hökm sürən zaman  işğal edib...

YENİ MÜSAVAT
N 143 (7032) 5 iyul 2018

**11 aprel prezident seçkilərindən sonra ölkədə siyasi aktivlik müşahidə edilmir. Müxalifət düşərgəsində də siyasi süstlük hökm sürür. Heç bir hərəkətlilik yoxdur. Bir sıra siyasi ekspertlər və hətta bəzi partiyaların sədrləri belə, bu vəziyyəti müxalifətin və cəmiyyətin süstlük böhranı kimi şərh edirlər.**

# "Bu şərtlər daxilində müxalifət böhrandan çıxa bilməz"

## **Sərdar Cəlaloğlu:** "Cəmiyyət demokratiyadan uzaqlaşdıqca müxalifət də onun arxasınca sürünə-sürünə demokratiyadan uzaqlaşır"

Bəs bu vəziyyətdən çıxmaq üçün müxalif düşərgənin hansısa planı, imkanı varmı?

**ADP sədri Sərdar Cəlaloğlu** "Yeni Müsavat"a bildirdi ki, müxalifət partiyaları hazırkı vəziyyətdə böhranın qarşısını almaq üçün heç bir addım ata bilməzlər. Çünki hazırkı süstlük bir total böhrandır: "Bunun bir çox səbəbi qlobal siyasətlə bağlıdır. Yəni qlobal iqtisadi böhran davam edir və bütün dövlətləri, hətta ABŞ kimi, Çin kimi nəhəng dövlətləri də sarsıdır. Cəmiyyətlərdə də neqativ hallar inkişaf etməyə başlayır. Avropanın özündə də dağılma prosesləri gedir. Bu prosesin dayanması və müsbətə doğru tendensiyanın başlanmasının yeganə yolu qlobal düzənin yenidən reformasiyasıdır və beynəlxalq hüququn dəyişdirilməsidir. Baxın, bütün qanunlar, konstitusiyalar dəyişir, ancaq BMT-nin 1947-ci ildə qəbul edilmiş qanununda heç bir dəyişiklik edilmir və bu da dəyişən dünya ilə ziddiyyət təşkil edir.



Azərbaycanda siyasi, ictimai sektorda böhranın səbəblərindən biri subyektiv amildir, vətəndaşların özünün şüur səviyyəsidir, passivliyidir. Ona görə də istəsək də biz o passiv kütləni aktivləşdirə bilmirik. Vətəndaş gərək öz maraqlarını müdafiə eləməyə hazır olsun ki, siyasi partiyalar da onu təşkil eləsin. Siyasi partiyaların işi siyasi aktiv kütləni təşkil etmək, onları nizamlı şəkildə öz maraqları uğrunda mübarizəyə cəlb eləməkdir. Əgər belə bir siyasi aktiv kütlə mövcud deyilsə, müxalifət nəyi təşkil eləyə bilər? Əlbəttə, olmayan şeyi təşkil etmək olmaz. Bu baxımdan xalqın apolitik vəziyyətdə olması da bizim indiki böhrandan çıxmamıza imkan vermir".

**S.Cəlaloğlu qeyd etdi ki, üçüncü səbəb iqtidarın apardığı siyasətdir. İqtidar ölkədə siyasi aktivliyin olması istiqamətində siyasət aparsaydı müxalifətin işi asan olardı:** "Məsələn, Azərbaycan iqtidarı bir çox ölkələrdə tətbiq olunan və seçkilərə gəlməməyə görə məsuliyyət nəzərdə tutan qanunu qəbul etsəydi, o zaman vətəndaşlar məcbur olub seçkilərə gələrdi. Nəticədə məcburi bir aktivlik yaranardı. Seçkiyə gəlməməyə görə 50 manat cərimə qoyulsa, bütün seçicilər səsverməyə gələr. Seçicilərin seçkilərə laqeydliyi də hazırkı siyasi süstlüyü yaradan və müxalifətin işini çətinləşdirən amillərdən biridir".

**O ki qaldı müxalifətdən asılı olan səbəblərə, ADP sədri vurğuladı ki, cəmiyyət və xalq necədirsə, müxalifət də elə olmalıdır. Cəmiyyət demokratiyadan uzaqlaşdıqca müxalifət də onun arxasınca sürünə-sürünə demokratiyadan uzaqlaşır:** "Demokratiyadan uzaqlaşmaq isə ona gətirib çıxarır ki, hər kəs özünü daha güclü sayır, daha ağıllı sayır, bir-birinə dözümlülük, uzlaşmalar, birləşmək meylləri sıradan çıxır. Hətta ayrı-ayrı partiyaların özünün daxilində belə, bu demokratik dəyərləri artıq müşahidə eləmək mümkün deyil. Bu da müxalifət qüvvələrinin təmərküzləşməsinə imkan vermir. Belə vəziyyətdə olan müxalifət partiyaları isə ortaya ciddi nəticələr qoya bilməzlər. Siyasi partiyalarda birlik, təmərküzləşmə, ümumi maraqlara görə bir addım geriyə atmaq meylləri yoxdur. Məsələn, bu il prezident seçkilərində namizəd kimi mən demək olar ki, bütün müxalifət partiyalarının qapısını döydüm. Lakin heç biri mənə dəstək vermədi. Belə bir vəziyyətdə biz hansı aktivlikdən, demokratik dəyərlərdən, bir araya gəlməkdən danışa bilərik. Azərbaycan müxalifəti üçün dar bir baxış var-hakimiyyətə gəlmək. Yerdə qalan heç bir məsələ barədə Azərbaycan müxalifəti nə düşünür, nə də maraqlanır. Bu da müxalifətin dar bir çevrədən çıxmasına imkan vermir. Mən mütəmadi olaraq çalışıram siyasi gündəmə yeni-yeni ideyalar gətirim ki, xalqın hansısa kəsimi bəlkə bu ideyaların müzakirəsində aktivləşsin. Böhrandan çıxa bilməmənin səbəblərindən biri müxalifətin özünün demokratik böhran keçirməsi ilə bağlıdır. Artıq partiya liderlərinin əksəriyyəti ritorikalarında belə, demokratiya sözündən istifadə eləmirlər, demokratik dəyərlərdən danışan yoxdur və əməli işində də demokratik prinsip və dəyərləri rəhbər götürən heç kim yoxdur. Azərbaycan müxalifəti siyasi ayırma siyasəti aparır, amma siyasi birləşməni həyata keçirmir. Böhranımızın ən ciddi səbəblərindən biri budur. Biz necə ki, birləşmə qabiliyyətinə malik deyilik, düşdüyümüz böhrandan çıxa bilmərik".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# ABŞ-ın Türkiyə və İranla barış deyil, savaş siyasətinin pərdəarxası

## **Elçin Mirzəbəyli:** "Tramp hakimiyyətə gəldiyi ilk gündən İsraillə bağlı öhdəliklərini yerinə yetirir"

**ABŞ-ın dünya siyasətində maraqlı və təzadlı sayılan tendensiya müşahidə olunmaqdadır. Belə ki, Vaşinqton son zamanlar ən sərt avtoritar rejimli ölkələrlə barışmaq istədiyini nümayiş etdirir, bu istiqamətdə addımlar atır. Amma paralel olaraq Türkiyə və İrana qarşı daha da aqressivləşir.**

Bu tendensiyanın arxasında nələrin dayana biləcəyi barədə "Yeni Müsavat"a danışan **politoloq Elçin Mirzəbəyli** bildirdi ki, ABŞ xaos siyasətini davam etdirir. Birləşmiş Ştatların nüvə silahına sahib olan ölkələrə loyal münasibəti isə həmin dövlətlərin hazırda Vaşinqtonun hədəfləri üçün prioritet olmamaları ilə bağlıdır: "Rusiyaya qarşı tətbiq olunan sanksiyaların da səbəbi daha çox bu ölkənin İranla bağlı mövqeyindən qaynaqlanır. Türkiyəyə qarşı sərgilənən siyasətdə də İran amili əsas səbəblərdən biri ola bilər. Digər tərəfdən, Qüdsdə ABŞ səfirliyinin açılmasına qarşı Türkiyənin kəskin reaksiyası da Vaşinqton-Ankara münasibətlərindəki ziddiyyətlərin dərinləşməsində əhəmiyyətli rol oynayıb. Bu arada bir məqama da diqqət çəkmək yerinə düşər: Nüfuzlu "New Yorker" həftəlik qəzetinin verdiyi xəbərə görə, Donald Tramp iyunun18-də İsrailə bu ölkənin nüvə silahı ilə bağlı öhdəlik məktubu göndərib. Qəzetin yazdığına görə, öhdəlik məktubunda İsrailin nüvə silahı ilə bağlı qeyri-müəyyən davranışları davam etdikcə, yeni Tel-Əviv nüvə silahına sahib olduğunu nə təkzib, nə də etiraf etmədikcə Vaşinqton bu ölkədən nüvə silahından imtina etməyi tələb etməyəcək. Əslində bu məlumat Vaşinqtonun nüvə silahı ilə bağlı prioritetlərini dəyərləndirmək üçün yetərlidir. Tramp hakimiyyətə gəldiyi ilk gündən İsraillə bağlı öhdəliklərini yerinə yetirir.



Düşünürəm ki, iyulun 16-da keçirilməsi planlaşdırılan Tramp-Putin görüşündən sonra Ağ Evin İranla bağlı siyasətinin mahiyyəti daha aydın görünəcək. Yalnız bu görüşdən sonra Vaşinqtonun İran siyasəti ilə bağlı daha aydın mənzərə yarana bilər".

**Politoloq Elşən Mustafayev isə bildirdi ki, ABŞ yalnız maraqları toqquşduğu avtoritar dövlətlərə qarşı hər zaman kəskin mövqe nümayiş etdirib. Uzlaşma əmələ gələndən sonra isə avtoritar və demokratik dövlət olmasından asılı olmayaraq normal münasibətlərdə olub:** "Bunu ikili standart kimi qiymətləndirmənin mümkünlüyünü bir kənara qoysaq, hesab edirəm ki, dünya liderliyinə iddialı bir dövlət üçün belə siyasət vacib amillərdən biridir. İndiyə qədər olan prezidentlərin hamısının dönəmində belə olub. Ona görə də belə dövlətlərə olan münasibəti də bir-birindən ayırmaq lazımdır. Məsələn, İrana olan münasibətlə Türkiyəyə olan münasibəti tamamilə eyniləşdirmək olmaz. Türkiyə bir NATO dövlətidir, yarandığı gündən Qərblə yaxın münasibətlər saxlayan Avropa Birliyinə daxil olmağa iddialı bir dövlətdir. Bu gün bir sıra strateji məsələlərdən dolayı aralarında yaranan soyuqluq varsa, bunun istənilən vaxt düzəlməsi perspektivləri də mövcuddur. Eyni zamanda nə qədər aqressivləşmə olsa da hər hansı sanksiyalardan söhbət getmir. İranda isə konkret mövcud rejimin dəyişdirilməsi və nüvə silahına malik olmağa imkan verməmək gündəlikdədir ki, burada münasibətlərin normal axara düşməsi üçün dinc və ya yumşaq perspektivlər çox zəif görünür. Yaxud Şimali Koreyaya olan münasibət isə digər dövlətlərə olan münasibətlərdən fərqlidir. Çünki orada artıq nüvə silahı var. Şimali Koreya bu silahla qonşularını və bütün dünyanı mütəmadi təhdid edir. Təbii ki, belə halda o dövlətə olan münasibətlərdə taktika fərqli də olacaq. Rusiya məsələsi də bir başqa yöntəmdə ABŞ-ın gündəmindədir. Ümumilikdə götürəndə bu o deməkdir ki, yəni ABŞ biri ilə barışmaq istədiyini bildirsə, bu, o halda mümkün olacaq ki, maraqların qismən və ya tam təmin etsin. Əks halda isə müxtəlif üsullarla nəticə əldə olunana qədər hədəfə doğru gedəcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 143 (7032) 5 iyul 2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın Müdafiə və Xarici İşlər nazirlikləri işğalçı ölkəyə xəbərdarlıq etdi

## Qarabağa polis qüvvələrini göndərən Paşinyan Bakını savaşa çəkir; işğalçı ölkə Bakıya antiterror əməliyyatına başlamaq üçün əsas verib

**Hakimiyyətə gəldiyi gündən ziddiyyətli davranışları və mövqeyi ilə diqqət mərkəzində qalmağa çalışan Ermənistanın baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ məsələsi ilə bağlı növbəti avantürist mövqe ortaya qoyub.**

İşğalçı ölkənin hökumət başçısı Ermənistan polisinin Azərbaycanın işğal altındakı ərazilərində xidmət keçməsi barədə qərar verməklə beynəlxalq hüququ açıq-aşkar tapdayıb. "Qrapark" qəzeti yazıb ki, "Daxili qoşunlar haqqında" qanuna görə, bu qoşunlar həm də ölkənin müdafiəsində iştirak etməlidir. Ancaq buna qədər daxili qoşunlardan yalnız etiraz hərəkatlarını yatırmaq üçün istifadə edilib. Ermənistanın polis rəisi Valeri Osipyan ötən şənbə daxili qoşun hissələrində görüş keçirib. Musavat.com-un xəbərinə görə, Osipyan bildirib ki, Müdafiə Nazirliyindən bununla bağlı təklif alıb və razılaşıb. Eyni zamanda vurğulanıb ki, polisin sərhəd bölgələrində yerləşdirilməsi Nikol Paşinyanın qərarıdır. Erməni qəzeti onu da yazıb ki, yalnız bir bölmə narazılığını bildirib. Osipyan deyib ki, 15 avqustda daxili qoşunlar Qarabağa göndəriləcək. Onlar 15 günlük "sərhədin müdafiəsində" iştirak edəcəklər. Bu xidmətin müqabilində isə polis əlavə maaş alacaq. Polisdən də görüşlə bağlı xəbəri təsdiqləyiblər.

Şübhə yoxdur ki, Azərbaycan ordusunun möhtəşəm hərbi paradı, daha sonra isə iyulun 6-dək davam edən genişmiqyaslı hərbi təlimlərə başlaması Ermənistanda ciddi narahatlıq yaradıb. Bundan əvvəl Paşinyan orduya istənilən ssenariyə hazır olmaqla bağlı göstəriş vermişdi. Ardınca isə onun daxili qoşunları Azərbaycanın işğal altındakı ərazilərinə göndərmək qərarı həm də onun təsdiqidir ki, Ermənistan Azərbaycan ordusunun qarşısında duruş gətirməyin mümkün olmadığını anlayır və polisi də proseslərə cəlb etməklə arsenalındakı bütün qüvvələri işə salmaq istəyir. Ermənistan daxili qoşunları da başqa ölkənin ərazilərinə göndərməklə beynəlxalq hüququ növbəti dəfə ayaq altına alır, eyni zamanda Azərbaycana öz ərazisində antiterror əməliyyatlara başlamaq üçün ciddi əsaslar verir.

**Artıq Azərbaycanın rəsmi qurumları Ermənistan hökumətinin qərarına münasibət bildirib. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı musavat.com-un sorğusuna cavab olaraq bildirib ki, Ermənistanda demoqrafik, iqtisadi vəziyyət ağırdır, silah-sursat çatışmazlığı hökm sürür:** "Biz dəfələrlə bəyan etmişik, beynəlxalq təşkilatlara da bildirmişik ki, Ermənistan işğalçıdır. Ermənistan növbəti dəfə öz simasını bu şəkildə göstərdi, işğalçı dövlət olduğunu açıq-aşkar bir daha nümayiş etdirdi".

**MN rəsmisi Ermənistanın bu yolla Azərbaycanda keçirilən hərbi təlimlərə, müharibə hazırlıqlarına "cavab" vermək cəhdini mənasız saydı:** "Biz bəyan etmişik, hərbi təlimlərimiz müəyyən olunmuş vaxtda və istiqamətdə, plan üzrə davam etdirilir". MN rəhbərliyi onu da qeyd edib ki, Ali Baş Komandanın əmr verəcəyi halda, Qarabağda Ermənistanın hansı qüvvələrinin yerləşdirilməsinin heç bir əhəmiyyəti olmayacaq.

**"Ermənistan kütləvi informasiya vasitələrində hökumətin qərarına istinadən Ermənistanın daxili qoşun birləşmələrinin Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirilməsi barədə məlumat verilir". Bu fikirləri isə XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. O deyib ki, Ermənistanın yeni hakimiyyətinin bu addımı hərbi avantüradır və vəziyyətin gərginləşdirilməsinə xidmət edir. Beynəlxalq hüquqa zidd bir şəkildə Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti və texnikasının böyük bir hissəsi Azərbaycanın işğal olunmuş ərazilərində cəmləşdirilib. H.Hacıyev daha sonra bildirib:** "Daxili qoşun birləşmələrini Azərbaycanın işğal olunmuş ərazilərinə yerləşdirməsi Ermənistan ordusunda acınacaqlı vəziyyətin və şəxsi heyətin komplektləşdirilməsində üzləşdiyi ciddi problemlərin əyani göstəricisidir. Bununla bərabər, ölkənin üzləşdiyi sosial-iqtisadi problemlərin həllində ciddi çətinliklərlə üzləşən Ermənistanın populist rəhbərliyi bu kimi gərginlik ab-havası və hərbi ritorika ilə ictimai rəyi manipulyasiya etməyə və öz reytinqini saxlamağa çalışır. Öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmaq əvəzinə Ermənistanın daxili qoşun birləşmələrini də Azərbaycanın işğal olunmuş ərazilərinə dislokasiya etməsi Ermənistanın işğalçı dövlət olduğunu və rəsmi İrəvanın münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmadığını növbəti dəfə açıq şəkildə nümayiş etdirir. Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür".

**Məsələyə ictimaiyyət nümayəndələri, ekspertlər və qeyri-hökumət təşkilatları da reaksiya verib.**

"Əslində bu addım birbaşa Azərbaycanın milli maraqlarına, ərazi bütövlüyünə yönələn qəsddir. Ermənistan heç bir beynəlxalq qanun tanımır və təcavüzkar siyasətini davam etdirir. Dağlıq Qarabağ ərazilərinə PKK silahlılarını da yığmaqda davam edir. Biz, Bütöv Azərbaycan Ocaqları olaraq hesab edirik ki, Azərbaycan özünün xarici siyasətini daha da aktivləşdirməli və Dağlıq Qarabağda antiterror əməliyyatları aparmaq üçün dünyanın iri dövlətlərini xəbərdar etməlidir".

**Bu fikirlər Bütöv Azərbaycan Ocaqlarının (BAO) yaydığı bəyanatdandır. Qurum qeyd edib ki, əslində Dağlıq Qarabağda antiterror əməliyyatlarına Türkiyə tərəfi də qoşula bilər:** "Çünki Türkiyə tərəfi də dəfələrlə bəyan edib ki, PKK terrorçuları Dağlıq Qarabağda da toplaşırlar. Bundan əlavə, Dağlıq Qarabağ dünya narkoticarətinin mərkəzinə çevrilməkdədir. İstər beynəlxalq qanunlar, istərsə də milli maraqlar və ərazi bütövlüyümüzün təmin edilməsi imkan verir ki, Dağlıq Qarabağda antiterror əməliyyatları keçirək".

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, son vaxtlar Ermənistan rəhbərliyinin inhisarında olan kütləvi informasiya vasitələrində bu məsələ, yəni daxili qoşunların işğal olunan ərazilərə və Azərbaycanla sərhədə göndərilməsi və xidmət keçmələri məsələsi gündəmdədir:** "Qanuna əsasən onların funksiyasına aid olan məsələlərdən biri də "müdafiədə iştirak"dır və ilk baxışda burada elə bir təəccüb doğuran məsələ yoxdur. Lakin Ermənistan polisinin rəhbərliyinin açıqlamasına görə bu məsələnin məhz müdafiə nazirliyindən qaynaqlanması diqqət çəkir. Deməli, müdafiə nazirliyinin buna ehtiyacı var. Təbii ki, əsas qərar verən Nikol Paşinyandır. Burada da müəyyən məsələlər var. Paşinyan keçirdiyi mitinqlərdə iştirakçılara qarşı güc tətbiq edən daxili qoşunları məhz bu yolla cəzalandırır. Artıq həmin hissələr avqust ayının 15-dən başlayaraq 15 günlük işğal olunan ərazilərə ezam ediləcək". **A.Nağıyev bildirdi ki, bu hissələrin yerli separatçılar tərəfindən necə qarşılanacağı da sual doğurur:** "Paşinyan təbii ki, Saakyan və onun quldur dəstələrinə tam inanmır, buna görə də polisdən istifadə edir. Digər tərəfdən, ordudakı şəxsi heyət çatışmazlığını bu yolla tənzimləməyə çalışır. Bundan başqa, Paşinyanın bu siyasəti özünə uyğun gəlməyən şəxsləri lokallaşdırtmaq və antikorrupsiya siyasətinin davam etdirməsini göstərməkdir. Siyasətçilərin həbsi, kiçik biznesmenlərin sıradan çıxarılması ölkədə vəziyyəti dəyişmir. Hətta iri məmurların işdən azad edilməsi, həbsi Sərkisyanın qohumlarına qarşı irəli sürülən ittihamlar da buna kömək etmir. Qarşıdan isə seçkilər gəlir, Paşinyan nəyin bahasına olursa-olsun Sərkisyanın komandasını zəiflətməlidir. Paralel olaraq ölkədə qərbyönümlü qeyri-hökumət təşkilatlarının yaradılması da böyük vüsət alıb və təbliğat antirus və keçmiş rəhbərliyin gözdən salınması istiqamətində aparılır".

**Politoloq maraqlı bir məqama da diqqət cəlb etdi:** "Daxili qoşunu işğal olunan ərazilərə göndərməklə Ermənistan öz müdafiə nazirliyinin müəyyən hissələrini oradan çıxara bilər. Bu isə daxili stabillik və Rusiya bazalarının funksiyalarının azaldılması üçün istifadə oluna bilər. Paşinyan başa düşür ki, Dağlıq Qarabağ münaqişəsi həll edilərsə, artıq Rusiya ona lazım olmayacaq. Eyni zamanda hətta separatçıları bir qurum kimi tanısa da, bu ağır yükün altından çıxa bilməz. Yeni daxili qoşunların dislokasiyası ilə aparılan bu hərəkətlər əsasən siyasi divident qazanmaq üçün atılan addımlardır. Azərbaycan isə bu variantların hər birinə hazır olan siyasətini davam etdirir və bu dəyişikliklərə hazırdır".

**Politoloq:** "Paşinyan təbii ki, Saakyan və onun quldur dəstələrinə tam inanmır, buna görə də polisdən istifadə edir"

Azərbaycan torpaqlarında Ermənistanın hərbi təlimlər keçirməsinə, qanunsuz tikinti işləri aparmasına, işğalçı ölkə ilə Dağlıq Qarabağı birləşdirən alternativ yolların çəkilməsinə sükutlu reaksiya verən və Bakını hərbi yoldan çəkindirməyə çalışan ATƏT-in Minsk Qrupunun həmsədrləri, həmçinin beynəlxalq qurumlar N.Paşinyanın bu cinayətkar qərarına da məhəl qoymur. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistanın işğalçı ordusunun çıxarılmasını qəti olaraq irəli sürsə də, bu qətnamələr, sadəcə, mənasız kağız parçası kimi kənarda qalıb. Eyni zamanda illər öncə Avropa Parlamenti İrəvana xitabən Dağlıq Qarabağa əsgər göndərməməyə çağırmışdı. Ermənistan nəinki bu qətnaməyə əməl etməyib, üstəlik, Qarabağa polis qüvvələrini də göndərməyə hazırlaşır. Beynəlxalq aləmin və Ermənistanın davranışları Azərbaycan üçün savaşın alternativini qoymur...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 143 (7032) 5 iyul 2018

**Çox isti havalar da sərt soyuq qədər öldürücü təsirə malikdir. Qlobal istiləşmə bütün dünyada müşahidə olunur. Avropa şəhərlərinin çoxunda bu yüzilin sonunda yaz fəslində 10 dərəcəyə qədər daha isti ola biləcəyi istiqamətində təxminlər var.**



# Kondisionersiz necə sərinləməli...

## Keçmişdən bu günə ilginc sərinləmə məsləhətləri

Yay mövsümündə çox isti olan şəhərlər yeni binaların damında bağça hazırlanmasında, mövcud damların açıq rənglə boyanmasında, yolların açıq boz rəngdə olmasında, küçələrə və açıq yerlərə ağac əkilməsində xüsusi aktivlik nümayiş etdirirlər. Yaxşı xəbər isə odur ki, bu cür çıxış yolları tətbiq olunan sahələrdə ərazinin istiliyini 2-3 dərəcə azaldır. Amma insanları yanıldan başqa bir arqument isə günəş panellərinin qara olmasına baxmayaraq, günəş işığını əmərək istilik adası təsirini azaltmasıdır...

Son günlər ölkədə yaşanan elektrik problemi üzündən insanları düşündürən bir neçə sual var. Bəs keçmişdə insanlar istidən necə qorunurdu? Kondisioner yox, sərinkeş yox... O halda insanların istilərlə mübarizəsi necə aparılırdı?

**Qardan hazırlanan dondurma**

Təbii ki, elektrik enerjisi mövcud olmazdan öncə də sərinləmənin bir yolu vardı. Məsələn, dondurmanın bir neçə min illik tarixinin, sadəcə, son dönəmi enerjiyə bağlıdır. Dondurmalar qış aylarında dağların zirvələrindən toplanan qarların qar quyularında saxlanaraq, yay aylarında istifadəyə buraxılırdı. Qar dərin quyulara salınaraq və təbəqələr halında doldurulur, təbəqə aralarına da əsasən də saman qoyulurdu. Yay aylarında üstdən başlayaraq hər təbəqədəki buzlaşmış qar dondurma hazırlanışı və qorunması üçün istifadə edilirdi. Təbii, müasir zamanda bu qar quyularından əsər yoxdur. Maraqlananlar googledə axtarış edib, qar quyusu barədə məlumatları əldə edə bilərlər...

Baba-nənələri anlamaq lazımdır. Onların doğulduğu dünyada nəinki ağıllı telefonlar, heç kompüterlər də bu qədər geniş yayılmamışdı. 1970-ci illərdə və ondan öncə dünyaya gələnlər evə gələn ilk televizoru belə xatırlaya bilirlər. Ütülər kömürlə çalışır, paltarlar əllə yuyulur, ocaqlar ən yaxşı halda qaz balonu ilə çalışır, ev telefonu çəkdirmək üçün sıralar yaşanır və orta hesabla 10 il gözləyirdilər. Üstəlik, "yoxlar" siyahısındakılardan, sadəcə, biri idi elektrik.

Bəs indi nə edək ki, keçmişdəki kimi istilərlə elektrik enerjisi olmadan da mübarizə apara bilək? Öncəliklə suyun sərinlədici gücündən faydalanın. Ləyənlərə su doldurub, ayaqlarınızı isladın. Yaş dəsmal və bandalar baş üzərinə və ya çiyinlərə qoyulduğu zaman sərinlədici bir təsir yaradır. Sərin duşlar alın, soyuq su ilə dolu bir şüşədən su püskürtməyə çalışın.

Aşağı mərtəbələrdə olmağa çalışın. İsti hava yüksəyə qalxır, bu səbəbdən yuxarı mərtəbələr aşağılardan daha isti olur. Zirzəmi günorta saatlarında istidən yaxşı qaçış yolu ola bilər.

Həddən artıq istilik qaynaqlarını yox edin. Ampuller lazım olduğundan artıq istilik yayır, açıq kompüterin yaydığı istilik kimi. Qaz yandırmağa ehtiyac qalmasın deyə təzə yeməklərdən istifadə edin.

Müəyyən bir miqdar suyu bədəndə tutmağa diqqət edin. Yeni hava isti olmayanda qəbul etdiyinizdən daha artıq su qəbul edin. Əgər həddən artıq çox tərləyirsizsə, elektrolitlərin yerinə yenilərini qoymaq üçün ya yeməyinizin yanında bol miqdarda su içməli, ya da elektrolit tərkibli özəl içkilər içməlisiniz. Susamaq dehidrasyonun ilk nümunəsidir, bunun qarşısını almaq üçün susamadan öncə yetərli qədər su içməlisiniz.

Alkoqol və kofeindən qaçın, bu iki maddə də idrar sökdürücü vəzifəsini icra edir.

Evdə sərinlik olması üçün bir kasa buzun arxasına qoyulmuş ventilyatorun qabağında oturun. İstilər artıq dayanılmaz bir hal alıbsa, günün ən isti saatları boyunca kondisioner sistemi olan, cəmiyyətə açıq yerlərə gedin. Kitabxanalar, alış-veriş mərkəzləri və kinoteatrlar üçün yaxşı bir yer ola bilər. Metabolik temperaturu artıracaq və bədənin isinməsinə səbəb olacaq böyük porsiyalı və bol proteinli yeməklərdən istifadə etməyin.

Son olaraq ev heyvanlarının da hava isindikcə narahat olduqlarını unutmayın. Onlara soyuq duş aldırmaq üçün bədən temperaturunu aşağı tutmaqda yardımçı olun. Üzərində yata biləcəkləri sərin bir dəsmal və ya sərinkeşi yanına qoyacağınız yaş bir əski heyvanınızı sərinlədəcək. Onlara içmələri üçün bol soyuq su verin. Bir ev heyvanında isti vurmasının əlamətləri nəfəs-nəfəsə qalma, böyük gözlər, isti dəri, qusma və göz qamaşmasıdır. Əgər heyvanınız bu əlamətləri göstərirsə, veterinarı gözləyin.

**İstilik artanda aqressiya da artır, digər neqativlər də...**

Amerikanın altı şəhərində bu halla bağlı araşdırma aparan psixologiya elmləri doktoru, Miçiqan kollecinin professoru Devid Meyers bildirib ki, istilər başlayanda qanun pozuntularının da sayı artır. Onun sözlərinə görə, bu, təkcə isti günlər üçün yox, bütövlükdə isti mövsümlər üçün xarakterikdir. Amerikada hava temperaturunun 2 dərəcə artması kifayətdir ki, həmin il ölkədə cinayət xarakterli hadisələr 50 min dəfə çoxalsın.

Doktor Meyers bildirib ki, isti insanın əsəb sistemini ən çox qıcıqlandıran xarici faktordur. Onun həmkarı Vilyam Qriffit isə bununla bağlı universitet yataqxanasının iki otağında təcrübə keçirib. Otaqlardan birində kondisioner işləyib, komfortlu şərait hökm sürüb. Digərində isə isti, susuzluq və standartlara uyğun olmayan atmosfer olub. Sonuncuda qalan tələbələr həm bir-birinə, həm də yad adamlara münasibətdə hədsiz aqressiv olub. Demək olar ki, həftə ərzində həmin otağın sakinləri arasında, qeyri-ciddi səbəblər üzündən 57 dəfə insident baş verib. Birincidə isə həmin müddətdə belə davaların sayı cəmi 3 olub - onların da əksəriyyətinin köklü səbəbləri olub.

İsti yayda aqressiyadan danışıb, alkoqollu içkini unutmaq olmaz. Belə ki, daim "öyrəşdiyin doza" yayda kritik sayılır. Pivəylə "sərinlənən" insan heç səbəbsiz yerə davaya qurşana və ya hansısa macəranın iştirakçısına çevrilə bilər.

Daha bir aldadıcı məqam. İnsanlar reklam roliklərinə aludə olub, antidepressantlardan istifadə edir. Antidepressantlar isə xüsusi olaraq, tər vəzilərinə təsir edir, tərin xaricə çıxmasına imkan vermir. Bu isə ekzokrin sisteminə qarşı zorakılıqdır. İstidən əziyyət çəkən orqanizm əlavə əziyyətlərə də tab gətirmək zorunda qalır.

Dövlət Yol Polisindən verilən məlumatda da bildirilir ki, yayda maşın sürənlərin sayı qışla müqayisədə iki dəfə artıqdır. Xüsusən də bu statistika gecə saatlarında çoxalır. Bu fəsildə yol qəzalarının artmasının bir neçə səbəbi var: 1. Yayda velosiped və motosiklet sürücüləri də yolda aktivləşir və bu, maşın sürücülərinin diqqətini yayındırır. 2. İstidə sürücülərin fikrini cəmləşdirmə əmsalı aşağı düşür, daha aqressiv olur və maşın üzərində hökmranlığını itirirlər 3. Yayda sürücülər mobil telefonla daha çox danışır. Bu zamansa beyindəki aktiv nöqtələr öz ayıq-sayıqlığını 29% itirir və bu, yol qəzalarına səbəb olur.

❑ **Sevinc TELMANQIZI,**
**Musavat.com**

# "İşıq sönən zamanda hər hansı bir ölüm faktı qeydə alınmayıb"

## Səhiyyə Nazirliyi: "100 körpənin ölməsi nağıldır"

**İki gün öncə gecə yarısı Mingəçevir İstilik Elektrik Stansiyasında (İES) baş vermiş qəza ölkənin bir çox bölgələrini, o cümlədən paytaxt Bakını zülmətə qərq etmişdi. Sosial şəbəkələrdə həmin gecə paytaxtdakı xəstəxanalarda 100 körpənin öldüyü barədə şayiələr də yayıldı. Bu şayiələrə inananlar az olsa da, ictimaiyyətdə müəyyən qədər narahatlığa səbəb oldu. İddialara görə, ölən körpələr əsasən küvezə yerləşdirilən yeni doğulmuşlar olub.**


Səfayə Əhmədova

Məsələyə aydınlıq gətirmək üçün əməkdaşımız Səhiyyə Nazirliyinin mövqeyini öyrənməyə çalışıb. Nazirliyin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova yayılan şayiələrin həqiqəti əks etdirmədiyini bildirib:

"Yüz uşağın ölümü nağıldır. Adi bir insanın, fərqi yoxdur, uşaq ya böyükdür, onun ölümünü necə gizlətmək olar? Sosial şəbəkələrin, internet resurslarının inkişaf etdiyi bir dövrdə bu cür olayı gizlətmək mümkün deyil. Bunu niyə edirlər, insanlar arasında niyə panika yaradırlar, anlamıram.

Səhiyyə Nazirliyinin balansında olan bütün xəstəxanalarda generatorlar var. Elektrik kəsildiyi andan bir neçə saniyə sonra generator avtomatik olaraq işə düşür. Həmin gecə də elektrik enerjisinin verilişi dayandıqdan sonra tibb müəssisələrində generatorlar avtomatik olaraq işə düşüb və həmin saatlarda xəstəxanalarda yüzlərlə əməliyyat həyata keçirilib.

Ümumiyyətlə, həmin gecə elektrik enerjisinin verilişində yaranan məhdudiyyətlər zamanı hər hansı bir ölüm faktı qeydə alınmayıb".

**Səfayə Əhmədova sosial şəbəkələrdə paytaxtdakı 1 saylı Kliniki Tibbi Mərkəzlə bağlı yayılmış iddialara da aydınlıq gətirib:**

"Sosial şəbəkələrdə bu xəstəxana ilə bağlı şayiələr yazılıb. Bildirilir ki, reanimasiyada xəstələr işıqsız qalıb. Lakin qeyd etdiyim kimi, bütün xəstəxanalarda, o cümlədən 1 saylı Kliniki Tibbi Mərkəzdə 4 generator var. Sadəcə, həmin gecə generatorların biri bir neçə dəqiqəlik sıradan çıxıb. Lakin mərkəzin əməkdaşları dərhal onu yenisi ilə əvəzləyib. Bu müddətdə isə digər generatorlardan istifadə olunub. Yeni reanimasiyada və avadanlıqların elektrik təchizatında heç bir problem yaşanmayıb".

**Nazirliyin əməkdaşı ötən gün axşam saatlarında enerji təminatında yaranan problem zamanı metrolarda halı pisləşən sərnişinlər haqqında da məlumat verib:**

"İyulun 3-dən etibarən metro stansiyalarının fəaliyyətində yaranan problemlə bağlı olaraq, Təcili və Təxirəsalınmaz Tibbi Yardım Xidmətinin xüsusi briqadaları Bakı metropoliteninin stansiyaları qarşısında və avtobus marşrutlarının daha çox işlək ərazilərində yerləşdirilib.

Enerji təminatında yaranan problem zamanı metrolarda halı pisləşən 19 nəfər təcili tibbi yardım xidmətinə müraciət edib və onlardan 6 nəfəri stasionar şöbələrə yerləşdirilib, həyati təhlükəsi olan yoxdur".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 143 (7032) 5 iyul 2018

**Amerika prezidenti Donald Trampla Şimali Koreya rəhbəri Kim Çen İn arasındakı görüşün ardından diqqətlər 14 iyula yönəlib. Həmin gün Tramp rusiyalı həmkarı Vladimir Putinlə görüşəcək. Bu görüşə maraq olduqca yüksəkdir.**



# Tramp-Putin görüşü problemləri çözəcəkmi...

## Qabil Hüseynli: "Danışıqlar prosesində çoxlu sürprizlərin şahidi olacağıq"

## Əhəd Məmmədli: "Bu görüşdə udan tərəf olmayacaq"

Ekspertlərin görüşün nəticələrinin necə olacağı barədə fikirləri birmənalı deyil. Tramp-Kim Çen İn görüşünün müsbət sonuclarının bu görüşdə olmayacağını düşünənlər də var, bunun əksini söyləyənlər də.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli hesab edir ki, Tramp-Putin görüşünü ən çox Rusiya ilə Amerikanın sürətlə silahlanması zəruri edir:** "Putin son dövrlərdə ordunun yenidən qurulması üçün, eləcə də orduya yeni nəsil silahlarının daxil edilməsi sahəsində hərbi büdcəni xeyli artırıb. Putinin silahlanma ilə bağlı atdığı addımlar Amerikanı buna təhrik etdi. ABŞ qanadlı raketlərini hazırlayıb, artıq uğurla sınaqdan keçirməkdədir. Bir sözlə, dünya yenidən sürətlə silahlanmağa, soyuq müharibə dövrünə qədəm qoymağa başlayıb. Amerikada bu məsələdə əsas günahkar Rusiyanı sayırlar. Rusiyanın Gürcüstan və Ukrayna ərazilərinin bir hissəsini istila etməsi diqqətdən yayınmayıb. ABŞ hazırda Kremli özünün bir nömrəli düşməni hesab edir. Sürətlə silahlanma ilə bağlı Rusiya və Amerika tərəfi narahatlıqlarını ifadə edən açıqlamalar hələ verməyiblər, xüsusilə şimal qonşumuz. Əksinə, Rusiyada müəyyən dairələr ölkələrinin küncə sıxışdırıldığını bildirirlər. Suriya hadisələri çoxlarına, o cümlədən Rusiya və Amerikaya dərs verdi. Düzdür, hər iki tərəf yeni silahlarını Suriyada sınaqdan keçirdilər, amma bu, böyük maliyyə vəsaiti hesabına baş verdi. Nəticədə Suriya bataqlığına girməyə dəyərdimi ya yox kimi suallar meydana çıxdı. Trampın hakimiyyətə gəlməsində Putin Rusiyasının rolunun olduğu barədə ciddi söz-söhbətlər var. Bu düşüncədə olanlar bir müddət Tramp-Putin görüşünü əngəlləyə bildilər. Lakin sonunda dünyanın iki cəbhəyə bölünməkdə olduğunu anlayan siyasi dairələr Putinlə danışıqlara başlamağı zəruri saydılar. Bundan əlavə, dünyada əsas təhlükə mərkəzlərindən birinin Çində, digərinin isə İranda olduğu düşüncələri də Amerika siyasi elitasında az deyil. Bu düşüncədə olanlar Rusiya ilə danışıqlara başlamağı zəruri hesab etdilər. Bu məqsədlə Trampın təhlükəsizlik məsələləri üzrə müşaviri Putin və Rusiyanın XİN rəhbəri Sergey Lavrovla uzunmüddətli söhbət də etdi. Nəticə etibarı ilə tərəflər Trampla Putinin neytral bir ölkədə görüşlərinə razılıq verdilər. ABŞ tərəfi bu görüşə xüsusi əhəmiyyət verir. Hətta Tramp bu görüşü nəzərdə tutaraq, sərsəm fikirlər səsləndirmişdi ki, əgər Rusiya özünü normal aparsa, Amerika Krımın Rusiya tərəfindən işğalının qanuniliyini qəbul etməyi istisna etmir. Onun bu fikirləri Amerika siyasi elitası tərəfindən normal qarşılanmadı. Rusiya tərəfi isə belə fikirlərin onları şirnikləşdirmək üçün deyildiyini bildirdi. Bununla Kreml Trampın tezisini gündəmdən çıxarmağa çalışdı. İndi tərəflər görüşə gedir və görüşün gündəmi barədə hərtərəfli açıqlamalar verilməsə də, başdan görünür ki, görüşün əsasını sürətlə silahlanmanın dayandırılması haqqında fikir mübadiləsi təşkil edəcək. Amma görüş barədə düşüncələrin əsası odur ki, Tramp İran məsələsində Putindən təminat almağa çalışacaq. Ağ Ev sahibi İran məsələsini artıq qafasına yerləşdirib. Rəsmi Tehranla məsələləri bitirmək niyyətindədir. Bu məsələdə onu qızışdıran yəhudi lobbisi bu istiqamətdə ciddi səylər göstərir. Əgər indiyə qədər Amerika Şimali Koreyanı zərərsizləşdirməyi qarşısına məqsəd qoymuşdusa, indi görünən odur ki, İran məsələsi daha aktualdır. Bu məsələ ilə bağlı ciddi hazırlıq işləri görülür. Məhz bu səbəbdən Rusiya ilə görüşü düzüb-qoşublar, yaxud da gündəmə gətiriblər. Hər halda, danışıqlar prosesində çoxlu sürprizlərin şahidi olacağıq. Amma unutmaq olmaz ki, Tramp belə görüşlərdə masa arxasında güclü siyasətçi kimi özünü göstərə bilmir. Bu danışıqlar prosesində Putinin əlinin güclü olduğu barədə qənaətlər var. Çox da səriştəli olmayan Trampla səriştəli Putinin görüşündə ümumi konsensusun əldə olunmayacağını deyənlərin sayı kifayət qədər çoxdur. Məncə, Rusiya görüş təklifini nəzərə alaraq, ciddi kompromislərə getməyəcək, danışıqlarda sərt mövqedən çıxış edəcək. Bu isə danışıqlarda Trampın nəzərdə tutduğu əsas məsələnin həllinə nail olmayacaq. Bir sözlə, gözləyək. Bu görüş barədə 14 iyuldan sonra daha güvənli danışmaq mümkün olacaq".

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli məlum problemlərin çözülməsinə inanmır:** "Putin istəyir ki, problemlər çözülsün. Tramp da bəlkə problemlərin çözülməsini istəyir. Amma bu tək Trampdan asılı deyil. Çünki Putindən fərqli Tramp tək ölkəsini idarə etmir. Görüş inanmıram ki, gözləntiləri versin. Bunun olması üçün ən azı Rusiya Donbasdan çıxmalıdır. Bunu da etmək üçün Krımı Rusiyanın tanınması lazımdır. Hazırda yuxarıda qeyd etdiyim güzəştlərə nə ABŞ, nə də Rusiya hazırdır. Belə görüşlərin səmimiyyətinə inanmaq sadəlövhlük olardı. Lakin belə görüşlərin olması dünyada gərginliyin azalması üçün lazımdır. Heç kim heç kimin ayağına gəlmir. Bu görüşdə udan tərəf olmayacaq. Protokol qaydası görüşdür. Amerika ilə Rusiya düşmən deyillər, rəqibdirlər. Düşmənlərin bir-biri ilə masa arxasında oturması normaldır və zərurətdir".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# İŞİD yenidən dirilir

## Terror təşkilatının fəallaşması kimə və nə üçün lazımdır?

**İŞİD lideri Əbubəkr əl-Bağdadinin oğlu Suriyada öldürülüb. Bu barədə ilk xəbəri "Röyters" agentliyi yayıb. Məlumatda bildirilir ki, İŞİD liderinin oğlu Hudeyfa əl-Bədri Suriyanın Hums şəhəri yaxınlığında bir elektrik stansiyasında öldürülüb.**




Artıq məlumatı İŞİD özü də təsdiqləyib. Qruplaşmanın media şəbəkəsi əl-Bədrinin "Humsda nusayrilər (Bəşər Əsədin ailəsinin mənsub olduğu ələvi cərəyanı - K.R.) və ruslara qarşı əməliyyatda öldürülüdüyünü" təsdiqləyib. İŞİD-ə məxsus "Amaq" saytı isə əlində silah olan gəncin şəklini yayıb.

Ancaq İŞİD mənbələrinin Bağdadinin oğlunun ölümünü operativ şəkildə təsdiqləməsi birmənalı qarşılanmır. Üstəlik, Bağdadinin oğlunun həqiqətən öldüyünü təsdiq edəcək hər hansı sübut ortada yoxdur. Ancaq bunun əvəzinə hər kəsə Bağdadinin sağ olduğu xatırladıb. Çünki son illərdə Bağdadinin bir neçə dəfə "öldü" xəbəri yayılıb. Ancaq bu məlumatların heç biri təsdiqini tapmayıb. Ən son olaraq ötən ilin sentyabrında Bağdadiyə aid olduğu bildirilən səs yazısı-çağırış yayılıb. 2014-cü ildə Mosulun alınmasından sonra İŞİD "İslam dövləti" xilafət, Bağdadi isə Mosul mərkəzi məscidində özünü xəlifə elan edib. Ancaq Mosul ötən ilin noyabrında İŞİD-dən geri alınıb. Hazırda İraq ərazisində yalnız Ənbar əyalətində İŞİD-in nəzarət etdiyi bölgələr qalıb. Bağdadinin özünün isə Ənbarda gizləndiyi ehtimal olunur. ABŞ hökuməti Bağdadinin başına 25 milyon dollar mükafat təyin edib.

Ancaq bu xəbərlərin indi, məhz İŞİD-in fəallaşması dövründə yayılması xeyli dərəcədə diqqət çəkir. Məsələ ondadır ki, Ənbar əyalətində qaldığı güman edilən İŞİD bir qədər əvvəl Kərkükdə peyda olub və "Həşdi Şabi" ilə döyüşüb. Hazırda da İraq qüvvələri İŞİD-ə qarşı Kərkükdə əməliyyatları davam etdirir. Britaniya mətbuatı da İŞİD-in yenidən toparlanıb hücumlara başlamağa hazırlaşdığını yazıb. Raqqa bir neçə terror hadisəsi baş verib, Kərkükdə toqquşmalar olub. Həm Suriyada, həm də İraqda yenidən fəallaşan terror təşkilatı yeni ərazilər ələ keçirməyə çalışır. Məsələ ondadır ki. hazırda İraq və Suriya ərazisində bunun üçün müəyyən imkanlar yaranıb. Xüsusən də Suriya ərazisində.

Məsələ ondadır ki, hazırda Suriya ərazisində hökumət qüvvələri bütün imkanlarını müxalif silahlı qruplarla mübarizə üçün səfərbər edib. Xüsusən də cənubda Dəra və Quneytra vilayətlərində hökumət qüvvələri silahlı müxaliflərlə savaşır. Bu isə istər-istəməz ölkənin digər regionlarına olan diqqəti və gücü azaldır. Bu səbəbdən də son həftələrdə Deyr əz-Zorda İŞİD-in fəallaşması müşahidə olunur. Son Bağdadinin oğlunun "öldü" xəbərinin yayıldığı Humsda da İŞİD-in mövcudluğunu göstərən xəbərin yayılması onu göstərir ki, İŞİD indi bir sıra regionlarda fəaldır. Məsələnin digər tərəfi də odur ki, İŞİD təkcə Suriya ordusu ilə deyil, həm də müxaliflərlə savaşır. Başqa sözlə, müxaliflərin zəiflədiyi yerlərdə bir qayda olaraq İŞİD peyda olur. Həm də indi diqqətini daha çox silahlı müxalifətə çevirən Suriya hakimiyyəti İŞİD-ə o qədər də zaman ayırmır. Burada bir başqa nüans da müxaliflər və İŞİD arasındakı seçimdir. Məsələ ondadır ki, Suriya hökuməti üçün daha təhlükəli olan qüvvə qəddar, dünyanın terrorçu kimi tanıdığı İŞİD deyil, islamçı və hərbi müxalifətdir. Çünki müxaliflərə aşkar şəkildə bir sıra ölkələr dəstək verir və onları Bəşər Əsəd hakimiyyətinin alternativi olaraq görürlər. Dolayısı ilə sabah hətta Suriyanın gələcək taleyi ilə bağlı danışıqlarda müxaliflər Əsədlə bir masada oturub Suriyanın gələcəyi ilə bağlı qərar verəcəklər. Ancaq İŞİD-ə bu şansı kimsə tanımayacaq. Əksinə, 2014-cü ildə olduğu kimi, daha da gücləndiyi təqdirdə İŞİD-ə qarşı növbəti güclü kampaniya başlaya bilər. Bu səbəbdən də indi Əsəd islamçı müxaliflərinə daha çox "diqqət" ayırmağa məhkumdur, nəinki İŞİD-ə.

Ekspertlərə görə, hazırda İraq və Suriya ərazisində İŞİD-in 8-10 min nəfər arası silahlı döyüşçüsü var. İŞİD-i xüsusən də Suriyanın şərqində fəallaşdıran amil bu bölgədə deyişən situasiyadır. Son olaraq ABŞ prezidenti Suriyanın şərqində amerikalı güclərin fəallığını azaltması haqda təlimat verməsi və bölgədəki əsas güc olan kürdlərin Suriya hökumət qüvvələri və Türkiyə ilə döyüşməsidir. Məhz bu səbəbdən də son həftələrdə İŞİD Suriyanın şərqində fəallaşıb. Artıq Deyr əz-Zorda bri neçə hücumlar həyata keçirən İŞİD-in yaxın zamanlarda daha da fəallaşması ehtimal olunur.

İŞİD-in bölgədə daha da fəallaşması Suriyanın şərqi ilə bağlı Dəməşq və kürdlər, həmçinin Rusiya və ABŞ arasında razılaşma əldə olunmamasıdır. Digər tərəfdən, Türkiyə də son aylarda fəallaşıb və Menbicə doğru irəliləyir. Yəni proseslər regionda siyasi anlaşma ehtimalının azaldığını göstərir. Siyasi anlaşma olmadıqda isə ən optimal yol yeni xaos və terror mühitinin yaranmasıdır. Görünən odur ki, növbəti mərhələdə Suriyanın əsasən də şimal və şərq rayonlarında İŞİD-in ifasında yeni xaos və terror dalğası başlayacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**



## Oğurluğa girdiyi evin sahibini öldürdü, arvadını yaraladı

### Qəddar oğruya 20 il həbs cəzası verildi

**Oğurluğa girdiyi mənzilin sahibini öldürüb, arvadını yaralayan şəxs hakim qarşısına çıxarılıb. Bakı Ağır Cinayətlər Məhkəməsində oğurluğa girdiyi mənzilin sahibini öldürüb, arvadını isə yaralamaqda təqsirləndirilən Maqsud Əliyevin cinayət işi üzrə məhkəmə iclası keçirilib. Hakim Samir Əliyevin sədrliyi ilə prosesdə hökm oxunub. Hökmə əsasən Maqsud Əliyev 20 il müddətinə azadlıqdan məhrum edilib.**

Xatırladaq ki, hadisə ötən ilin avqustunda Abşeron rayonunun Saray qəsəbəsi, "Üzümlük" adlanan ərazidə qeydə alınıb. Belə ki, həmin ərazidə Məmməd Sərxanova məxsus evə girən naməlum şəxs ev sahibin başına taxta ilə vuraraq öldürüb. Naməlum şəxs daha sonra ev sahibinin həyat yoldaşı Zeynəb Sərxanovanı hədələyərək pul tələb edib. Məqsədinə çata bilmədikdə isə qadına da xəsarət yetirərək, hadisə yerindən qaçıb.

Z.Sərxanova xəstəxanaya yerləşdirilib. Abşeron rayon Polis Şöbəsi və prokurorluq əməkdaşlarının birgə həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində hadisənin rayon sakini, 1974-cü il təvəllüdlü Maqsud Şiri oğlu Əliyev tərəfindən törədilməsi müəyyən edilib və o saxlanılıb. Daha sonra onun barəsində həbs-qətimkan tədbiri seçilib.

Məlum olub ki, Maqsud Əliyev avqustun 21-də Xırdalan şəhərində yaşayan Sevda Hüseynovanın mənzilinə basqın edib. O, bıçaqla hədələyib, ondan pul və qızıl-zinət əşyaları tələb edib.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

## "Nar" şəbəkəsi tam gücü ilə abunəçilərə xidmət göstərir

**Elektrik enerjisinin təminatında yaranmış fasilələrlə əlaqədar olaraq, "Nar" abunəçilərin kəsintisiz və yüksəkkeyfiyyətli rabitə xidmətləri ilə təmin edilməsi üçün zəruri addımlar atıb. Son iki gün ərzində operatorun və tərəfdaş şirkətlərin texniki heyəti sahə və ofislərdə növbə ilə 24/7 rejimində çalışır. Mobil xidmətlərin sabitliyini təmin etmək üçün sahələrdə generatorlardan istifadə olunur. Görülmüş təxirəsalınmaz tədbirlər nəticəsində "Nar" 2G/3G/4G şəbəkələrinin müvafiq stabillik göstəricisi təmin edib.**

**Qeyd edək ki, iki gün öncə başlayan elektrik enerjisi kəsintilərinə baxmayaraq, "Nar" şəbəkəsinin əksər hissəsi bütün ölkə ərazisində abunəçilərə xidmət göstərməyə davam edib. Mobil rabitə xidmətlərinin göstərilməsində çətinliklərin yaşanmaması məqsədilə paytaxt və bölgələrdə mövcud olan bütün resurslar səfərbər edilib, şəbəkənin normal rejimdə fəaliyyəti təmin edilib. "Nar" bu kimi vəziyyətlərdə yarana biləcək çətinliklərin qarşısının alınması üçün önləyici tədbirlər görməyə davam edir.**

**"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.**

## Nemət Pənahlı sərinləşdirici qurğu yaratmağı düşünürmü?

### "Azərbaycanda ixtiraçılıq potensialı kifayət qədər yüksəkdir"

**Milli Dövlətçilik Partiyasının sədri, milli azadlıq hərəkatının öncül isimlərindən olan Nemət Pənahlı yenidən gündəmə gəlib. Buna səbəb son günlərdə ölkəmizdə hava şəraitinin kəskin şəkildə istiləşməsidir.**



Bu ilin qışında havaların kəskin soyuqlaşmasından sonra ixtira etdiyi ucuz və keyfiyyətli istilik sobası ilə gündəmi zəbt edən N.Pənahlının indi sərinləşdirici qurğuları əvəz edən yeni ixtira haqqında düşünüb-düşünməmdiyi müzakirə obyektidir.

**N.Pənahlı həyatında boş işlərlə heç zaman məşğul olmadığını bildirdi:** "Müasir dünyada evləri sərinləşdirmək üçün müxtəlif cür kondisionerlər var. Dünyada ən yüksək səviyyədə kondisioner sistemi inkişaf etməkdə davam edir. Son olaraq, insanların ciblərinə uyğun şəkildə sərinləşdirici qurğu bir türk vətəndaşı tərəfindən ixtira edildi. İnternetdə bu qurğunun nümayişi var. Açığı, bunu mən də fikirləşmişdim. Sadə yolla ixtira edilən qurğudur. Adi bir vedrənin içərisinə buz doldurur, ventilyatoru da içərisinə qoyur. Bu ixtira 60 lirəyə başa gəlir. Bu, çox sadə bir qurğudur və istənilən şəxs bunu edə bilər. Mən də fikirləşirəm ki, necə bir şəkildə keyfiyyətli və ucuz başa gələn sərinləşdirici qurğu kəşf etmək olar. Kondisioner, ventilyator kimi sistemlər boşuna yaranmayıb, insanlar bunu düşünüb icad ediblər. İxtira, sadəcə, əvvəlkindən fərqli bir yenilikdir. Çalışmaq lazımdır ki, daha ucuz başa gələn qurğu ixtira edilsin. Hər bir millət ixtiralara meylli olmalıdır. Adicə "Mercedes" avtomobilinin müxtəlif cür variantını ixtira ediblər. Türkün ixtirası gördüyüm qədər keyfiyyətlidir. Açığı bunu praktikadan keçirmək istəmişəm, sadəcə zaman tapmamışam. Bu ixtiranı edən sadə bir türk vətəndaşıdır. Onun ixtirasını istənilən şəxs təcrübədən keçirə bilər. Həmin şəxs özü də insanlara müraciət etdi ki, bunu istənilən şəxs edə bilər. Evlərimizdə olan 1000 manatlıq kondisionerimizin yerinə bunu qoymaq olar. Heç bizim evdə kondisioner yoxdur. Bunu almağa imkanım olmayıb. Çünki çox baha olub. Bu baxımdan kasıb təbəqənin ehtiyaclarına uyğun olaraq bu tipli ixtiraları etmək çox yaxşı haldır. Mən ixtira etdiyim istilik sobasını patentləşdirirəm. Müəlliflik hüququnu alacam. İndi də mənim əlimdən gələn odur ki, həmin türkün etdiyi ixtiranı insanlara çatdırım. Hazırda dəhşətli dərəcədə istilər var. Doğrudan da ucuz qiymətə sərinləşdirici qurğuya böyük ehtiyac var. Kondisioner ala bilmirsən, həmin türkün ixtirasını özün hazırla. Hər evdə soyuducu, vedrə və ventilyator var. Soyuducuya su qoyursan, buz olur. Sonra vedrənin yarısına qədər buz doldurursan, qapağına da ventilyatoru birləşdirirsən, oradan da üç dənə deşik açırsan, bundan sonra ventilyator sərinliyi evə yayır. 50-60 kvadratmetr evi tam sərin formaya gətirir. İnternetə baxıb bir saat ərzində bu qurğunu düzəltmək olar. Sadəcə, internetə baxmaq lazımdır ki, bilgin olsun. Ən primitiv adam da onu düzəldə bilər. Azərbaycanda ixtiraçılıq potensialı kifayət qədər yüksəkdir. Sadəcə, buna şərait yaratmaq lazımdır. Azərbaycan ixtiraçılarının nəyə qadir olduqlarını incəliklərinə qədər bilən adamam".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

## «Bakcell» bütün ölkə ərazisində mobil rabitə xidmətinin dayanıqlığını təmin edib

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti ölkə ərazisində elektrik enerjisinin təchizatı ilə bağlı yaranmış çətinliklər zamanı mobil rabitə xidmətlərinin dayanıqlığını maksimum şəkildə təmin edib.**

**"Abunəçilərini yüksək keyfiyyətli mobil rabitə xidməti ilə təmin etmək üçün bu günlər ərzində xüsusi rejimdə çalışmışıq. Ən son texnologiya ilə təchiz olunmuş «Bakcell» şəbəkəsinin texniki imkanları sayəsində dayanıqlı səs və internet xidmətlərini təmin etməyə nail olmuşuq", deyə «Bakcell» şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.**

**"İyulun 2-dən 3-nə keçən gecə «Bakcell»şəbəkəsi və şirkətin bütün müvafiq strukturları dərhal gücləndirilmiş iş rejiminə keçirilib. Mobil xidmətlərin kəsintisiz fəaliyyətinin təmin edilməsi istiqamətində görülmüş qabaqlayıcı tədbirlər çərçivəsində ölkənin paytaxtında və elektrik enerjisinin təchizatı ilə bağlı çətinliklər müşahidə olunan digər bölgələrində yerləşən mobil baza stansiyalarının elektrik təchizatında fasilələrin qarşısının alınması məqsədilə şirkət tərəfindən çoxlu sayda əlavə enerji qurğusu, yüzlərlə stasionar və portativ generator işə salınıb. Həmçinin, "Bakcell"in müvafiq partnyorları və podratçı şirkətləri tərəfindən prosesə əlavə işçi qüvvəsi cəlb olunub.**

**«Bakcell» şirkətinin texniki personalı gücləndirilmiş rejimdə fəaliyyət göstərərək 24 saat ərzində mobil şəbəkəyə nəzarət edir və xidmət keyfiyyətinin monitorinqini həyata keçirir. Nəticədə, ucqar ərazilər daxil olmaqla ölkənin bütün bölgələrində "Bakcell"in mobil baza stansiyaların fasiləsiz işi təmin olunur.**

**Xidmət keyfiyyətinin ölçülməsi və abunəçilərin bütün sual və müraciətlərin dərhal cavablandırılması üçün "Bakcell"in məlumat mərkəzi və sosial media kanalları da həmçinin 24 saat ərzində gücləndirilmiş rejimdə fəaliyyət göstərir.**

**«Bakcell» şirkəti şəbəkənin fasiləsiz fəaliyyətinin təmin edilməsinə yönəlmiş tədbirləri davam etdirəcək.**

**Elan**

**"Tofoil AG" şirkətinə məxsus 1500860421 nömrəli VÖEN itdiyi üçün etibarsız sayılır**

YENİ MÜSAVAT
N 143 (7032) 5 iyul 2018



# Kavanì-"Matador", "ürək yeyən" və ovçu...

**Rusiyada finişə yaxınlaşan futbol üzrə dünya çempionatında ən yaxşı oyunçulardan biri, bəlkə də birincisi Uruqvay yığmasının hücumçusu Edinson Kavanidir. 1\8 qarşılaşmasında Portuqaliyanın qapısına iki top vuraraq (çempionatda 4 qol vurub) komandasını növbəti mərhələyə çıxaran ulduz futbolçu haqda yazını diqqətinizə çatdırırıq.**

## Uruqvay millisinin İtaliya kökənli hücumçusu Edinson Kavaninin futbola gəlişi, ailəsi və qadınları haqda...

Əsl adı Edinson Roberto Kavani Qomesdir. Xarici görünüşündən hindulara oxşasa da, əslində kökəncə italiyalıdır. Ata babası İtaliyanın məşhur Siciliya adasındandır. 1920-ci ildə Argentinaya miqrasiya ediblər, oradan isə Uruqvaya köçüblər. Edinsonun atası da bu ölkədə doğulub. Atası Luis də yaxşı futbol oynayıb və milli komandanın üzvü də olub. Eləcə də qardaşı Kristian da mili komandanın müdafiə xəttində oynayıb.

Edinson 1987-ci ilin 14 fevralında (bu tarixi yaxşı yadda saxlayın) paytaxt Montevideodan sonra ikinci ən böyük şəhər olan Saltoda doğulub. Onun futbolda kumiri argentinalı forvard Qabriel Batistuta olub. Onun topla oynamaq bacarığı paytaxt klublarının dərhal diqqətini çəkir. Artıq 12 yaşı olanda paytaxt Montevideonun bir sıra klubları onu heyətlərinə cəlb etmək istəyirdilər. Amma atası Edinsonu seçim etməkdə tələsməməyi məsləhət bilirdi. Saltonun "Nasional" və "Remeros" klublarında bir müddət oynadıqdan sonra o, daha bir kluba keçir. 2000-ci ildə o, "Danubio" klubunun gənclərdən ibarət komandasında oynamağa qərar verir. Bu klubda təxminən 6 il oynayır. 2006-cı ildə isə o, artıq "Atirbiro"da debüt edir və klubda çempionluğu bayram edir.

2007-ci ildə onu Uruqvayın gənclərdən ibarət komandasında Cənubi Amerika çempionatında oynamağa dəvət edirlər. Edinsonun milli komandada ilk debütü uğurlu olur. O, Uruqvay gənclərinin heyətində 9 dəfə meydana çıxır və 7 top vuraraq ən məhsuldar oyunçu olur, milli komanda isə turnirdə 3-cü yeri tutur.

2007-ci ildə İtaliyanın "Palermo" klubu ona imtina edə bilməyəcəyi müqavilə təklif edir. 2007-ci ilin 11 martında o, "Palermo"nun heyətində yaddaqalan debüt edir. "Fiorentina"qarşı oyunun 55-ci dəqiqəsində meydana buraxılan Edinson Kavani qol vurur.





2008-ci ildə isə onu milli komandaya dəvət edirlər. Kolumbiyaya qarşı oyuna çıxan hücumçu ilk qol hesabını açır. 2010-cu ildə o, "Palermo" nu tərk etməyə qərar verib. Edinson Kavani bu dəfə "Çelsi" və ya "Yuventus"un heyətində qatılmaq istəyir. Amma bundan bir qədər əvvəl "Palermo" ilə müqavilənı uzatdığı üçün transfer xeyli problemli görünürdü. Çünki "Palermo" futbolçuya 1 il üçün 1 milyon avro ödədiyi halda, müqavilənin pozulacağı halda, kluba 25 milyon avro ödənilməli idi. Edinsonun transferini gerçəkləşdirmək istəyən klublar isə...sıraya düzəlmişdi. Məsələn,"Mançestr Siti" onun transferi üçün 19 milyon ödəməyə hazır olduğunu demişdi. Amma Kavani nəhayətdə, "Napoli" də 5 milyon avroya icarə şərti ilə oynamağa qərar verir.

2012-cu ildə "Arsenal"ın o zamankı baş məşqçisi Arsen Venger Kavanini transfer etmək istəyir. Venger bu transfer üçün 30 milyon avrodan keçməyə hazır olur. Amma 2013-cü ilin iyulunda Kavani Fransanın "PSJ" klubu ilə 5 illik müqavilə bağlayır. Bu transfer Fransa klubuna 35 milyon avroya başa gəlir.

Zltan İbrahimoviçin də heyətində olduğu "PSJ" də Kavani tezliklə əsas oyunçulardan biri olur. Amma o, nə qədər çalışsa da, Zlatan kimi təcrübəli oyunçunun kölgəsindən çıxa bilmir. 2016-cı ildə Zlatan "Mançestr Yunayted"ə transfer edilir. Bundan sonra isə Kavani "PSJ" də əsas heyətdə möhkəmlənir və hücum xəttinin əsas oyunçusu olur. 2017-2018-ci il mövsümündə Kavani "PSJ" tarixində ən məhsuldar oyunçu olur.

14 fevralda-Müqəddəs Valentin günündə anadan olan italiyalı kökənli Kavani haqda "çapqın" demək olar. Məşhurların özəl həyatından yazmağı daha çox xoşlayan İtaliya mətbuatı azarkeşlərin "Matador" ləqəbi verdiyi Kavani haqda yazmağı xoşlayır. Çünki o, təkcə yaxşı futbolçu deyil, həm də "ürək yeyən" biridir ki, bunu 14 fevralda doğulması ilə də əlaqələndirirlər.

Bəzi mənbələr onun həyat yoldaşı Mariya Soledadla ilə 2005-ci ildə tanış olduğunu yazır. Amma həqiqətdə Mariya onun uşaqlıq sevgisi olub və məşhurlaşdıqdan sonra o, arzusunu gerçəkləşdirib. Kavani 2007-ci ildə onunla münasibətlərin rəsmiləşdirib. İlk oğlu Bautista 2011-ci ildə dünyaya gəlib. İlk baxışdan onların həyatında hər şey qaydasında davam edirdi. 2013-cü ildə isə onların daha bir oğlu olacağı məlum olur. Maraqlıdır ki, məhz xanımı hamilə olduğu ərəfədə Kavani boşanacağını bəyan edir. Onun dediklərindən belə məlum olur ki, son vaxtlar münasibətləri alınmır, evlilik isə yalnız kağız üzərindədir. "Boşanmaq asan qərar deyil. Mariya indi Uruqvaya qayıdacaq və oğlumuz vətəndə dünyaya gələcək. Amma biz münasibətlərimizi davam etdirə bilməyəcəyik" deyə, futbolçu bəyan edir. Mariya bir müddət sonra o günləri həyatının şoku adlandırır. "Təsəvvür edin ki, Lukas dünyaya gələndən bir neçə gün sonra o, bizi tərk etdi. Deyirdi ki, Lukasın Uruqvayda doğulmasının üstünlükləri var, üstəlik, İtaliya mətbuatı onları rahat buraxmır. O, bizi Uruqvayda qoyub geri qayıtdı ki, özü sərbəst istədiyi ilə yaşasın. Mən uşaqları ondan ayırmaq istəmirdim. Amma xanımına xəyanət etmiş birini yanımda görmək də istəmirdim" deyə, o bildirib.







2013-cü ildə isə cütlük boşanmağa qərar verir. Məhkəmə qərarı ilə boşanandan sonra Kavani ayda uşaqlarına və keçmiş arvadına aylıq 25 min avro ödəyir.

Kavani boşandıqdan sonra italiyalı Mariyo Rozaryu ilə evlənəcəyi haqda xəbərlər çıxmağa başlayır. İddia olunur ki, Kavaninin ailəsindən ayrılmasına bu gənc xanım səbəb olub və futbolçu onunla nikaha girəcək. Amma Kavani ticarət mərkəzlərinin birində satıcı işləyən bu xanımla tezliklə münasibətlərinə son qoyur. Kavani artıq bir müddətdir ki, Coselin Burqartla bir yerdədir. Coselin Uruqvayda samba rəqsi oynamaqda məşhurdur. Rusiyadakı dünya çempionatında da Kavani onunla birgə gəlib.

Əgər futbol onun peşəkar işidirsə, Kavaninin əsl hobbisi ovçuluqdur. Vaxtilə atası onu Uruqvay dağlarında qaban ovlamağa aparırmış və bu hobbi ona atasından keçib. Atası deyir ki, balaca Edinsonu yük maşını ilə özü ilə balıq tutmağa yaşadıqları evdən bir neçə kilometr uzaqda yerləşən gölə aparırmış. Orada varlıların qayıqlarına baxan 12 yaşlı Edinson atasına deyərmiş: «Mən məşhur futbolçu olacağam. O zaman sənə ən böyük yük maşını və belə böyük qayıq alacam». «Mən isə gülərdim. İndi doğurdan da mənim ölkədə ən böyük yük maşınım və ən böyük qayığım var",- deyə, atası mətbuata bildirib.

❑ **Nazim SABİROĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 143 (7032) 5 iyul 2018

# İt özünü sahibinə qurban verdi



Hindistandan olan 65 yaşlı fermer inəyi xilas etmək istəyərkən onu elektrik cərəyanı vurub. Amma kişini müşayiət edən it sahibinə tərəf qaçıb və ölüb. Bu barədə "Times of İndia" nəşri xəbər verib. Hadisə Maduray şəhəri yaxınlığındakı bir kənddə yaşanıb. Fermer M.Mokusu inəyini otlamağa çıxarıb. Amma bu ərəfədə kənddə küləklə müşayiət olunan güclü yağış yağırmış və bu, elektrik xətlərinə zədə vurmuşdu. Xətlərə toxunan inək yıxılıb və yerə düşüb. Mokkusu heyvanı xilas etmək üçün onun üstünə hoppanıb. Amma bu zaman kişini elektrik vurub. Bu zaman isə ondan iti yapışıb və cərəyan onu öldürüb. Polis hadisə barədə eşidən kimi ora gəlib və zərərgörmüş elektrik xətti təmir edilib. Nəşr eyni zamanda qeyd edib ki, kəndin bir çox sakinləri hadisə barədə xəbər tutan kimi ora gediblər. Onlar hesab ediblər ki, təhlükə ilə üzləşən kəndlini xilas edən it qəhrəmandır.



## 92 yaşlı qadın 72 yaşlı oğlunu öldürdü

Amerikanın Arizona ştatında 92 yaşındakı bir qadın onu yaşlılar evinə göndərməyə çalışan 72 yaşındakı oğlunu öldürüb. Fountain Hills qəsəbəsi polis yetkililərinin verdiyi məlumata görə, bazar ertəsi səhər saatlarında meydana gələn hadisədən sonra yaxalanan Anna Mae Blessing, oğlu və oğlunun sevgilisi ilə yaşadığı evdən götürüləndə "sən mənim canımı aldın, mən də səninkini" deyə bağırıb. Cinayətə görə ittiham olunacaq qadın polisə açıqlayıb ki, özünü öldürməyi də planlaşdırıb. Polisin rəsmi sənədlərinə görə, Blessing gecə xalatının ciblərinə 1970-ci illərdən qalma iki tapançanı gizlədərək, oğlu və sevgilisinin yataq otağına girib. Oğlunu boynundan və çənəsindən vuran qadın daha sonra silahını oğlunun 57 yaşındakı sevgilisinə tərəf çevirib. Dava zamanı silahını düşürən qadın bu dəfə digər silahını çıxarıb, amma uğurlu olmayıb. Oğlunun sevgilisi isə evdən qaçaraq polisə bu olayla bağlı xəbər verib. Polis evə gələndə kresloda oturarkən tapdığı Blessing isə deyib ki, "etdikləri üçün onu dərmanla yatızdırmaq" lazımdır.

Birinci dərəcəli cinayətlə paralel adam qaçırmağa görə də ittiham ediləcək Blessing üçün 500 min dollarlıq kəfalət məbləği müəyyənləşdirilib.

# Şənbə-bazar günləri 2 saat daha artıq yatın, çünki...

**İnsanlar həftə sonlarında istirahəti daha çox yatmaqla bir araya gətirirlər. Yəni şənbə-bazar günləri, səhərlər daha gec oyanırsızsa, özünüzü daha çox istirahət etmiş sayırsınız. Halbuki alimlər sübut edib ki, artıq yuxu piylənməyə səbəb olur. Yəni həftə sonları kim nə qədər çox yatırsa, bir o qədər də piylənmə ilə əlaqədar xəstəliklər qazanır.**

Mütəxəssislərin rəyinə görə, iş və istirahət günlərindəki yuxu müddətinin fərqi bədən üçün təhlükə törədir. Onlar bunu 800-dən çox könüllü insan üzərində araşdıraraq sübut ediblər. Əvvəlcə könüllülərin çəkisi, boyu ölçülüb, onlardan qan nümunələri götürülüb. Sonra könüllülər arasında neçə saat yatmaları haqqında sorğu aparılıb və maraqlı nəticələr alınıb.

Məlum olub ki, adi iş günü ilə müqayisədə istirahət günü iki saat artıq yatanların çəkiləri artır və onlarda diabet xəstəliyinə meyllilik yaranır. Mütəxəssislər vəziyyətdən çıxış yolu üçün fəal həyat sürməyi, səhər tezdən idman zallarına getməyi məsləhət bilirlər.





## İstidən bezdiyi üçün soyuducuya girdi

Türkiyənin Malatya şəhərində istilərdən bezən bir mağaza satıcısı çıxış yolu olaraq soyuducuya girib, sərinləndi. Havanın temperaturu gündüz 50 dərəcəyə qədər artdığı Malatya şəhərində istidən bezən vətəndaşlar olduqca fərqli çıxış yollarından istifadə edirlər. Həddən artıq istilərə qarşı fərqli çıxış yolundan istifadə edənlərdən biri də Battalqazi bölgəsinə bağlı olan Mələkbaba Məhəlləsində mağaza sahibi olan Ömər Fişənkçi olib. O, istilərə qarşı çıxış yolu olaraq iş yerinə soyuducu gətirməyi seçib: "İş yerində iki dənə soyuducum var. Birində soyuq içkilər saxlayıram. Digərinə isə mən girirəm və burada sərinləyirəm".

Onu soyuducuda görənlər isə təəccüblənirlər: "Mən həyatımda belə isti görmədim. Bu istilərlə başqa cür mübarizə aparmaq olmaz. İş yerində günümün böyük hissəsi soyuducuda keçir. İstilərlə mübarizə apara bilməyən hər kəsə bu yolu məsləhət görürəm".

## Qoroskop




QOÇ - Sizin üçün istirahət etməkdən söhbət belə gedə bilməz. Əksinə, bütün işgüzar görüşlərinizi bu təqvimə təyin etməlisiniz. Çünki ən uğurlu gün məhz sizin bürcün bəxtindədir.

BUĞA - İxtiyarınızda olan bu təqvimdə ilk öncə işgüzarlığınızı artırmağa çalışın. Əsas işləriniz yarımçıq qaldığı təqdirdə istirahət etməyin. Yeni sövdələşmələrə də hazır olun.

ƏKİZLƏR - İqlimin qəfil dəyişkənliyi və proseslərin əsəbi müstəviyə keçməsi səhhətinizlə bağlı problemlər yarada bilər. Odur ki, özünüzü qorumağa güc verin. Göy-göyərti çox yeyin.

XƏRÇƏNG - Bürcünüzün ən gözəl günlərindən birini yaşayacaqsınız. Bütün proseslər xeyrinizədir. Ulduzlar büdcənizə xeyir verəcək. Amma sizə ehtiyac duyan insanlara baş çəkməyi də unutmamalısınız.

ŞİR - Mənəvi və ruhi baxımdan uğurlu gündür. Göy qübbəsi bütün hərəkətlərinizi tənzimləyəcək. Özünüzü qorumağa çalışın ki, bəzi xoşagəlməz hadisələr ovqatınızı poza bilməsin.

QIZ - Riskli qərar çıxarmayın. Əks təqdirdə, həmişəki kimi yanılacaqsınız. Başqaları ilə məsləhətləşməməyinizə ulduzlar da təəccüblənər. Unutmayın ki, çox vaxt "tək əldən səs çıxmır".

TƏRƏZİ - Hansısa xırda məsələyə görə bu qədər sıxıntı keçirməyiniz nəyə lazım? Axı çıxış yollarını hamıdan yaxşı siz bilirsiniz. Özünüzü çətinliyə salmaqdansa, qəti qərar verin. Yeri gəlsə, məsləhətləşin.

ƏQRƏB - Əsas diqqətinizi ailə-sevgi münasibətlərinin tənzimlənməsinə yönəldin. Hazırda ətrafınıza daha çox yaxşı adamlar toplaşıb. Onların kömək və məsləhətlərindən yararlanın.

OXATAN - Ulduzlar bəyan edir ki, yalnız münasibətlər zəminində uğurlarınız olacaq. Səfər, fəaliyyət və ya şəxsi işlər üçünsə sərfəli vaxt deyil. Qohumlarla mübahisələrə yol verməyin.

OĞLAQ - Nədənsə son vaxtlar sürətlə ötən günlərdən mənəvi zövq ala bilmirsiniz. Bu problemi aradan qaldırmaq istəyirsinizsə, qonaq gedin. Narahatlığı yalnız bu cür dəf edə bilərsiniz.

SUTÖKƏN - Astroloji göstəricilər bu təqvimdə daha çox sizin bürc üçün büdcə artımı olduğuna işarə edir. Bəxtinizi sınamaq pis olmazdı. Amma riskli və yeni işlərdən də uzaqlaşmalısınız.

BALIQLAR - Səhhətinizə fikir verə bilsəniz, günün ümumi mənzərəsi qənaətbəxş olacaq. Qayğınıza qalanlar sizi darıxmağa qoymayacaq. Bu gün dünyadan gedənlərinizə dualar oxuyun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Çörək sexini 1 avroya satdı



Fransanın Dol şəhər sakini Mişel Flaman şəxsi çörək sexini yerli evsizlərdən birinə, simvolik məbləğə - 1 avroya satıb. Bu barədə "The Local" xəbər yayıb. Xəbərə görə, 2015-ci ilin dekabrında dəm qazından boğulan kişini 37 yaşlı evsiz Jerom Okan xilas edib. Həmin vaxt J.Okan xilasetmə xidmətinə zəng edib, eyni zamanda 62 yaşlı sex sahibini də xilas edib. Xəstəxanadan qayıdandan sonra sex sahibi təşəkkür əlaməti olaraq evsizi işə götürüb. Sex sahibinin sözlərinə görə, Jerom Okan olduqca tez bir müddətdə işin incəliklərini mənimsəyib və onun öhdəsindən gəlib. Onda kişi öz biznesini şagirdinə satmaq qərarına gəlib: "Məni pul yox, azadlıq maraqlandırır. Mən istirahət etmək istəyirəm. Eyni zamanda Jeromu da xoşbəxt edə biləcəmsə, niyə buna görə özümə icazə verməməliyəm?"

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100